AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

Fakultə: **«Əyani»**

Kafedra: **«DİO-nun inzibati fəaliyyəti»**

Fənn: **«DİO-nun inzibati fəaliyyəti»**

MÜHAZİRƏ

Mövzu № 4: «Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyəti»

Tərtib etdi:
"DİO-nun inzibati fəaliyyəti"
kafedrasının rəisi, polis polkovniki
V.G.Abışov

Mühazirəyə əlavə və dəyişiklər etmişdir:
kafedranın müəllimi, polis polkovnik-leytenantı
Ş.T.Şükürov

Mühazirəyə edilmiş əlavə və dəyişiklər kafedra iclasında müzakirə olunmuş və təsdiq edilmişdir.
Protokol № _____, «_____» _____ 2016-cü il

Bakı - 2016

Mövzu № 4. "Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyəti"

P L A N

Giriş:

1. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin anlayışı və əsas əlamətləri.
2. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin formaları və onların növləri.
3. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin metodları və onların növləri.

Nəticə:

Ə D Ə B İ Y Y A T:

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu. 28 oktyabr 1999-cu il.
3. "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 iyun 2001-ci il.
4. "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 fevral 1998-ci il.
5. "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 09 avqust 1994-cü il.
6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. 29 avqust 2000-ci il.
7. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 17 iyul 2009-cu il tarixli 390 №-li əmri. "Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında" Təlimatın, "Şəhər, rayon, nəqliyyatda polis orqanlarının rəhbərliyi arasında nümunəvi vəzifə bölgüsü"nün təsdiq edilməsinə dair.
8. «Şəhər, rayon, polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin vəziyyətinə dair» Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Kollegiyasının 29 noyabr 2013-cü il tarixli KQ-5\1 n-li qərarı (DİN-in 04.12.2013-cü il tarixli Ə950-001-13 nömrəli əmri).
9. "Statistika haqqında" Azərbaycan Respublikasının Qanunu. 18 fevral 1994-cü il.
10. "Vətəndaşların müraciətlərinə baxılması haqqında" Azərbaycan Respublikasının Qanunu. 10 iyun 1997-ci il.
11. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. m.204-209; 212.
12. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 24 dekabr 2002-ci il.

13. Azərbaycan Respublikası DİN-in 02.01.2001-ci il tarixli 1 №-li əmri ilə təsdiq edilmiş "DİO-nun növbətçi hissələrinin işinin təşkilinə dair" Təlimat.
14. Azərbaycan Respublikası DİN-in 05.06.2001-ci il tarixli 222 №-li əmri ilə təsdiq edilmiş "Cinayət və hadisələr haqqında əməliyyat məlumatlarının toplanması, hazırlanması və Azərbaycan Respublikası DİN-ə təqdim edilməsi qaydalarına dair" Təlimat.
15. Azərbaycan Respublikası DİN-in 30 may 2001-ci il tarixli 212 №-li əmri: "Polisin post-patrul nizamnaməsinin təsdiq edilməsi barədə".
16. Azərbaycan Respublikası DİN-in 03.09.2012-ci il tarixli Q21-001-12№-li qərarı: "Daxili işlər orqanlarında icazə sisteminin təşkili qaydalarına dair Təlimatın təsdiq edilməsi haqqında".
17. "2013-cü ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələri haqqında" Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Kollegiyasının 28 yanvar 2014-ci il tarixli KQ-1nömrəli qərarı (DİN-in 29.01.2014 tarixli Ə81-201-14 nömrəli əmri).
18. Tədris proqramı. "DİO-nun inzibati fəaliyyəti". Ümumi hissə. Bakı, 2002.
19. Dərslik. "DİO-nun inzibati fəaliyyəti". Ümumi hissə. V.Abışov, H.Eyvazov. Bakı, 2008.
20. Dərs vəsaiti. "DİO-nun inzibati fəaliyyəti". Ümumi hissə. Qısa kurs. Bakı, 2008.
21. Dərs vəsaiti. "DİO-nun inzibati fəaliyyəti". Ümumi hissə. 100 suala 100 cavab. Bakı, 2005.
22. Dərs vəsaiti. "DİO-nun inzibati fəaliyyəti". Sxemlərdə. Bakı, 2006.
23. Тядрис програмы. ДИО-нун инзибати фяалиййяти. Цмуми щисся. Бакы 2009.
24. Дярслик. Абышов В., Ейвазов Щ. ДИО-нун инзибати фяалиййяти. Цмуми щисся. Бакы 2008.
25. Дярслик. «Административная деятельность ОВД». Цмуми щисся. А.П.Коренев. М., 2001.
26. Дярс вясаити. «Административная деятельность ОВД». Л.Л.Попов. Академия МВД СССР. М., 1987.
27. Дярслик. «Административное право и административная деятельность ОВД». М., 1990.
28. Дярслик. "Административная деятельность ОВД". Цмуми щисся. А.П.Коренев. М., 2001.

G İ R İ Ş

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlətin bütün fəaliyyət sahələrində olduğu kimi daxili işlər sahəsində, eləcə də daxili işlər orqanlarının idarə edilməsi sahəsində də islahatların aparılmasına başlanmışdır. Dövlət tərəfindən bu islahatlar bu gündə aparılmaqdadır.

Respublikamızda aparılan hüquqi islahatlar nəticəsində hüquq-mühafizə orqanlarının fəaliyyətini, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsini, vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının qorunmasını və onların etibarlığını təmin edən bir çox yeni qanunlar qəbul edilmişdir.

Hüquqi islahatlar nəticəsində qəbul edilən bütün qanunlar Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə əsasən müəyyən edilmiş dövlətin ali məqsədi olan "insan və vətəndaş hüquqlarının və azadlıqlarının, təmin edilməsinə" xidmət edir. Dövlətin bu ali məqsədinin təmin edilməsi bütün hüquq-mühafizə orqanlarının, o cümlədən də polis orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsini tələb edir.

Dövlətin ali məqsədinin yerinə yetirilməsi sahəsində və dövlətin idarəetmə sahələrindən biri olan daxili işlərin idarə edilməsində polis orqanlarının üzərinə düşən vəzifə və funksiyaların yerinə yetirilməsində əsas rol inzibati-hüquqi vasitələrlə həyata keçirilən polis orqanlarının inzibati fəaliyyətinə məxsusdur. Digər tərəfdən isə ölkədəki hüquq qaydasının vəziyyəti polis orqanlarının inzibati fəaliyyətinin səmərəliliyindən bilavasitə asılıdır.

"Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin vəziyyətinə dair" Az.Res DİN-in 29 noyabr 2013 tarixləri KQ-5/1 kollegiyasının qərarından irəli gələrkən qeyd etmək istərdik ki, "Açıq hökümətin təşviqinə dair" 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində də bir sıra işlər görülmüş, o cümlədən vətəndaşların arasında təşviq edilməsi məqsədilə fəaliyyəti tənzimləyən normativ hüquqi aktların sadələşdirilmiş versiyaları, bələdçi qaydalar tətbiq olunmuşdur.

Beləliklə, polisin əsas vəzifələrinin, polis əməkdaşının ümumi vəzifələrinin, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahələrində polis əməkdaşının vəzifələrinin tam və səmərəli yerinə yetirilməsində bu günkü mühazirəmizin mövzusu həm nəzəri, həm də təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Daxili işlərin idarə edilməsi dövlət idarəetməsinin mühüm sahələrindən biri olduğu üçün dövlətin bu sahədəki vəzifə və funksiyalarının yerinə yetirilməsində daxili işlər orqanları mühüm rol oynayır.

Dövlətin daxili işlər sahəsindəki vəzifə və funksiyalarının dairəsindən, onların məzmun və xüsusiyyətlərindən asılı olaraq, daxili işlər orqanları öz gündəlik fəaliyyətini inzibati fəaliyyət, əməliyyat-axtarış fəaliyyəti və cinayət-prosessual fəaliyyət kimi təşkilati-hüquqi fəaliyyət formalarda həyata keçirir. Daxili işlər orqanlarının qarşısında duran vəzifələrin və bu orqanların daxili struktur elementlərinin (xidmət və aparatlarının) əksəriyyətinin inzibati fəaliyyət xarakterli olmasını nəzərə alaraq, daxili işlər orqanlarının fəaliyyətinin təşkilati-

hüquqi formaları içərisində daha geniş istifadə olunanı və bu orqanların şəxsi heyətinin daha çoxunun məşğul olduqları inzibati fəaliyyət formasıdır.

Bu günkü mühazirəmizin mövzusunun da mahiyyəti ondan ibarətdir ki, onun vasitəsi ilə siz, **birinci növbədə** daxili işlər orqanlarının inzibati fəaliyyətinin anlayışı, mahiyyəti və əsas əlamətləri, daxili işlər orqanlarının inzibati fəaliyyətinin hüquqi xarakteristikası, daxili işlər orqanlarının inzibati fəaliyyətinin prinsipləri və onların məzmunu barədə nəzəri biliklər əldə etmiş olacaqsınız. Bu biliklərə yiyələnməklə siz, "Polis haqqında" Qanunun 3-5-ci maddələrindən irəli gələn tələbləri qüvvədə olan qanunvericiliyin və qanunçuluğun tələblərinə müvafiq olaraq yerinə yetirmiş olarsınız.

Mühazirəmizin mövzusu vasitəsi ilə əldə edəcəyiniz biliklər həm nəzəri, həm də təcrübi cəhətdən sizin gələcək fəaliyyətinizdə mühüm əhəmiyyət kəsb edəcəkdir. Çünki, bu nəzəri bilikləri mənimsəməklə siz, gələcək fəaliyyətinizdə xidməti vəzifə və funksiyalarınızı müvafiq olaraq yerinə yetirmiş olarsınız. Digər tərəfdən isə bu biliklərə yiyələnməklə siz gələcək xidməti fəaliyyətinizdə "Polis haqqında" Qanunun 13-14, 16-18 və 20-ci maddələrinin tələblərini düzgün və dönmədən, eləcə də peşəkarcasına yerinə yetirmiş olarsınız.

Mühazirəmizin mövzusunun **ikinci sualının** əsas mahiyyəti onun vasitəsi ilə polisin inzibati fəaliyyətinin məzmunu, funksiyaları, formaları və növləri barədə nəzəri biliklərin əldə edilməsindən ibarətdir.

Tələb olunan səviyyədə nəzəri biliklərə yiyələnməklə siz, "Polis haqqında" Qanunun 3-cü maddəsinin 2-ci hissəsinə əsasən polisin əsas vəzifələrinin, 13-cü maddəsinə əsasən polis əməkdaşının ümumi vəzifələrinin, 14 və 16-cı maddələrinə əsasən isə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahələrində polis əməkdaşının vəzifələrinin qanunvericiliyin tələblərinə müvafiq olaraq və peşəkarcasına yerinə yetirilməsinə nail olmuş olarsınız.

Mühazirəmizin mövzusunun **üçüncü sualı** daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin metodlarına həsr olunub.

Hüquqi dövlət quruculuğu dövründə dövlət idarəçiliyində təşkilatçılıq və intizamın təmin edilməsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi prosesində insanların şüuruna fəal dövlət və ictimai təsir vasitələrinin **- inandırma və məcburetmə metodlarının vasitəsi ilə həyata keçirilir.**

Dövlət idarəetməsi prosesində idarəetmənin əsas fəaliyyət metodu kimi əhali tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına şüurlu surətdə və könüllü olaraq dürüst və dönmədən əməl etmək, vətəndaşların hüquqlarına, şərəf və ləyaqətinə, birgə yaşayış qaydalarına hörmət etmək, cəmiyyət qarşısıda məsuliyyət daşımaq zərurətliyinə inandırma vasitəsindən istifadə edir. Azərbaycan Respublikasının Konstitusiyasının 72-ci maddəsində göstərilmişdir:

"I. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır.

II. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

III. Qanunu bilməmək məsuliyyətdən azad etmir".

Cəmiyyətdə baş verən hüquq pozmalarının xəbərdar edilməsi və qarşısının alınması, onları törədən şəxslərin qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə cəlb edilməsi və onların müəyyən edilmiş qaydalara riayət etmələrini təmin etmək məqsədilə dövlət idarəetmə prosesində idarəetmənin ikinci əsas metodu olan məcburetmə metodundan da geniş istifadə olunur. Bununla əlaqədar Azərbaycan Respublikasının Konstitusiyasının 80-cı maddəsində müəyyən edilmişdir:

"Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur".

Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli "Polis haqqında" Qanununun 3-cü maddəsinin I hissəsində təkzib olunmuş polisin təyinatında da bu ideya öz əksini tapmışdır: "Azərbaycan Respublikasında polisin təyinatı insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd əməllərdən qorumaqdan ibarətdir".

Göstərilənlərə müvafiq olaraq, dövlət idarəetmə prosesində inandırma metodu ilə yanaşı məcburetmə metodunun dövlət orqanları tərəfindən tətbiq edilməsi zəruridir və bu zaman inandırma və məcburetmənin tətbiqinin nisbətinə xüsusi fikir verilməlidir. Lakin, inandırma heç də həmişə cəmiyyətdə davranış normalarını pozan şəxslərə kifayətli təsir vasitəsi olmur. Bununla əlaqədar olaraq, polis cəmiyyətin maraqlarını, insan və vətəndaşların hüquq və azadlıqlarını müdafiə edərək, inandırma və ictimai təsir tədbirlərinə tabe olmayan şəxsləri onlara qarşı müxtəlif məcburetmə tədbirləri tətbiq edərək müəyyən edilmiş qaydalara əməl etməyə məcbur edir.

Sual 1. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin anlayışı və əsas əlamətləri.

Azərbaycan Respublikasında aparılan demokratik, hüquqi dövlət quruculuğunun əsas vəzifələrindən biri də respublikada mövcud olan ictimai-siyasi sabitliyin qorunub saxlanılmasının, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, onların qanuni mənafelərinin və formasından asılı olmayaraq mülkiyyətin mühafizəsinin təmin edilməsidir.

Dövlətin daxili işlər sahəsindəki bu vəzifə və funksiyalarının yerinə yetirilməsində daxili işlər orqanları (polis) xüsusi yer tutur. Dövlətin bu sahədəki vəzifələrinin tam, vaxtında və səmərəli yerinə yetirilməsinin təmin edilməsi məqsədi ilə hüquqi vəziyyətlərindən asılı olaraq konkret normativ-hüquqi aktlar vasitəsi ilə daxili işlər orqanlarının (polisin) hər birisinin bu sahədəki vəzifə və funksiyaları müəyyən edilmişdir. Məsələn: "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında" Əsasnamənin 2-3-cü bəndlərinə əsasən Daxili İşlər Nazirliyinin bu sahədəki vəzifə və funksiyaları müəyyən edilmişdir; "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 2-ci bəndinə əsasən polisin bu sahədəki əsas vəzifələri müəyyən edilmişdir; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 17 iyul 2009-cu il tarixli 390 №-li əmri ilə təsdiq edilmiş "Şəhər, rayon, nəqliyyatda polis orqanları haqqında" Əsasnamə ilə şəhər, rayon, nəqliyyatda polis orqanlarının bu sahədəki vəzifə və funksiyaları müəyyən edilmişdir və s.

Daxili işlər orqanlarının (polisin) hüquqi vəzifələrindən asılı olaraq, yuxarıda göstərilmiş normativ-hüquqi aktlar vasitəsi ilə onların hər birisinin müəyyən edilmiş vəzifələrinin həcmindən və onların məzmunca müxtəlifliyindən, yəni onların vəzifələrinin xüsusiyyətlərindən asılı olaraq daxili işlər orqanları (polis) öz gündəlik fəaliyyətini aşağıdakı üç təşkilati-hüquqi formada həyata keçirir:

- inzibati fəaliyyət;
- əməliyyat-axtarış fəaliyyəti;
- cinayət-prosessual fəaliyyəti.

Daxili işlər orqanlarının (polisin) fəaliyyətinin yuxarıda göstərilən təşkilati-hüquqi fəaliyyət formaları içərisində "inzibati fəaliyyət" forması daxili işlər orqanları polis tərəfindən yerinə yetirilən vəzifələrin həcminə və məzmunca müxtəlifliyinə görə xüsusi yer tutur.

2014-ci ilin Yanvarın 28-də Daxili İşlər Nazirliyində 2013-cü ildə *cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş* ***Kollegiya iclası*** *keçirilmişdir.*

Cəmiyyətdə polisin nüfuzunun vətəndaşların müraciətlərinə vaxtında, obyektiv və ədalətli şəkildə baxılmasından, bütövlükdə insan və vətəndaş hüquq və

azadlıqlarının nümunəvi təminindən birbaşa asılı olduğunu qeyd edən general-polkovnik Ramil Usubov ötən il Azərbaycan polisin 95 illiyi münasibətilə keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin ***"...İnsanlara polis əməkdaşları tərəfindən daim diqqət, qayğı göstərilməlidir, kobudluğa yol verilməməlidir...Cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə aparılmalıdır...Yəni, polis orqanları və onun əməkdaşları bu istiqamətdə də çox ciddi olmalıdırlar...Polis əməkdaşları korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə də ön sıralarda olmalıdırlar..."*** *sözlərini xatırladaraq vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində möhtərəm dövlət başçımızın qarşıya qoyduğu proqram vəzifələrin icrasının daim ciddi nəzarətdə saxlanıldığını və zəruri təşkilati-əməli tədbirlərin ötən il də planlı surətdə yerinə yetirildiyini vurğulamışdır. Bildirilmişdir ki, Nazirliyin rəhbərliyi və struktur xidmətləri tərəfindən 5 mindən çox, o cümlədən qabaqcadan məlumat verilməklə 64 şəhər və rayon üzrə 476 vətəndaş qəbul olunmuş, qaldırılan məsələlərin əksəriyyəti yerində müsbət həll edilmişdir. Hesabat ilində vətəndaşlardan Nazirliyə 45 minə yaxın, o cümlədən elektron poçt ünvanına 9800 müraciət daxil olmuş, onların yalnız 3 faizini polis əməkdaşlarından şikayətlər təşkil etmişdir.*

Hüquqi statuslarına görə idarəetmə orqanları olaraq, daxili işlər orqanları (polis) icraedici və sərəncamverici funksiyaları yerinə yetirir və bu funksiyaların həyata keçirilməsi üzrə onların fəaliyyətləri əsasən inzibati-hüquqi normalar vasitəsi ilə tənzimlənir. Bu funksiyaların yerinə yetirilməsi zamanı daxili işlər orqanları (polis) inzibati-hüquqi münasibətlərin subyektləri rolunda çıxış edirlər.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyəti – bu orqanların daxili işlər sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlətin vəzifə və funksiyalarının bilavasitə, gündəlik və praktiki olaraq həyata keçirilməsindən ibarət olan məqsədyönlü, təşkiledici, icraedici - sərəncamverici və qanunqüvvəli təşkilati-hüquqi fəaliyyət formasıdır.

Polisin bir çox aparat və xidmətlərinin fəaliyyəti öz mahiyyətlərinə görə inzibati fəaliyyət xarakteri daşıyır. Bu fəaliyyət özündə əsasən, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkət təhlükəsizliyinin təmin edilməsi, icazə sisteminin həyata keçirilməsi, vətəndaşların yaşayış və olduqları yer üzrə qeydiyyata alınmaları, inzibati nəzarətin həyata keçirilməsi, polis sahə inspektorlarının fəaliyyəti, polisin post-patrul xidməti, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqpozmalarının xəbərdar edilməsi üzrə xidmətin fəaliyyət göstərməsi, polisin xüsusi müəssisələrinin fəaliyyət göstərməsi və s. kimi fəaliyyətləri birləşdirir.

İnzibati-hüquqi vasitələr dövlət, xüsusi və bələdiyyə mülkiyyətlərinin mühafizəsində, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olmaları və Azərbaycan Respublikası ərazisindən tranzitlə keçmələri qaydalarına riayət etmələrinə nəzarətin həyata keçirilməsində də geniş tətbiq olunur.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyəti ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin, ictimai yerlərdə əmin-amanlıq (sakitlik) vəziyyətinin təmin edilməsinin, şəxsiyyətin, onun hüquq və

azadlığının mühafizəsinin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin qorunmasının, hüquqazidd hərəkətlərin xəbərdar edilməsi və qarşısının alınmasının, təqsirkar şəxslərə qarşı inzibati-prosessual təminetmə tədbirlərinin və inzibati tənbehlərin tətbiq edilməsinin əsas istiqamətlərindən birini təşkil edir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə istiqamətləndirilmiş fəaliyyətin məzmununu *birinci növbədə*, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi vəzifələrinin praktiki olaraq həll edilməsinin təşkili prosesində orqanların daxilində; *ikinci növbədə* isə dövlət orqanlarının və ictimaiyyətin qüvvə və vasitələri ilə gündəlik bilavasitə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi zamanı yaranan və inkişaf edən inzibati-hüquqi münasibətlər təşkil edir.

Birinci halda – söhbət ştatların müəyyən edilməsindən, kadrların seçilməsi, yerləşdirilməsi və öyrədilməsindən, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə qərarların hazırlanması və qəbul edilməsindən, qəbul edilmiş qərarların praktiki olaraq yerinə yetirilməsinin təşkilindən, nəzarət funksiyalarının həyata keçirilməsindən və s. (yəni təşkilatdaxili münasibətlərdən, daxili işlər orqanlarının təşkilatdaxili fəaliyyətindən) gedir.

İkinci halda isə – ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı olan münasibətlər nəzərdə tutulur. Belə münasibətlərə misal olaraq aşağıdakı kimi münasibətləri, məsələn: vətəndaşlar tərəfindən ictimai qaydaya, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətaların törədilməsi ilə bağlı yaranan münasibətləri; silah-təmir emalatxanaların açılmasına icazənin alınması üçün idarə, müəssisə və təşkilatların daxili işlər orqanlarına müraciətləri ilə bağlı yaranan münasibətləri; şəxsiyyət vəsiqələrinin alınması və ya dəyişdirilməsi ilə əlaqədar vətəndaşların polis orqanlarına müraciətləri ilə bağlı yaranan münasibətləri və s. misal olaraq göstərmək olar

Daxili işlər orqanlarının (polisin) iştirakı ilə yaranan belə münasibətlərin obyektləri xidməti münasibətlərdə daxili işlər orqanlarına (polisə) tabe olmayan vətəndaşlar, idarə, müəssisə, təşkilatlar və onların vəzifəli şəxsləri ola bilərlər. Müzakirə edilən bu münasibətlər daxili işlər orqanlarının (polisin) təşkilatdankənar (xarici) inzibati fəaliyyətinə xas olan münasibətlərdir. Bu münasibətlər daxili işlər sahəsində qanunvericiliyin tələblərinə vətəndaşlar və vəzifəli şəxslər tərəfindən riayət olunmasının bilavasitə təmin edilməsində, hüquqpozmalarının və digər qanunazidd əməllərin xəbərdar edilməsi və qarşısının alınmasına, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsinə istiqamətləndirilmiş tədbirlərin həyata keçirilməsində ifadə olunur.

Beləliklə, *daxili işlər orqanlarının (polisin) təşkilatdaxili və təşkilatdankənar (xarici) inzibati fəaliyyəti bir-biri ilə qarşılıqlı əlaqədədir və onların əsas vəzifələri vətəndaşlar və vəzifəli şəxslər üçün onların əməyi, istirahətliyi, müxtəlif tələbatlarının təmin edilməsi, hüquq və qanuni mənafelərinin realizəsi sahəsində daha əlverişli şəraitin yaradılmasından ibarətdir.*

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin mahiyyəti – onun vasitəsi ilə daxili işlər orqanlarının (polisin) qarşısında duran vəzifə və funksiyaların qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilməsinin təmin edilməsindən ibarətdir. Digər tərəfdən isə daxili işlər sahəsində daxili işlər

orqanlarının (polisin) qarşısında duran vəzifələrin həcmindən və onların məzmunca müxtəlifliyindən, yəni onların vəzifələrinin xüsusiyyətlərindən asılı olaraq daxili işlər orqanlarının (polisin) vəzifə və funksiyalarının böyük həcminin inzibati fəaliyyət forması vasitəsi ilə həyata keçirildiyi üçün bu fəaliyyət forması praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Daxili işlər orqanlarının (polisin) qarşısında duran vəzifələrin həcmindən və məzmunca müxtəlifliyindən asılı olaraq bu vəzifələrin yerinə yetirilməsində vətəndaşların, ictimaiyyətin iştirakının daha da genişləndirilməsində, onun yeni (müasir) formalarının axtarılıb tapılmasında və tətbiq edilməsində daxili işlər orqanlarının (polisin) fəaliyyətinin təşkilati-hüquqi formaları içərisində daha geniş istifadə olunanı inzibati fəaliyyət formasıdır. Onun köməkliyi ilə daxili işlər orqanlarının (polisin) qarşısında duran vəzifələrin yerinə yetirilməsində ictimaiyyətin iştirakının forma və üsulları müəyyən edilir, cinayətkarlığa və digər hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsində ictimaiyyətin rolu daha da yüksəldilir.

Daxili işlər orqanlarının (polisin) təşkilatdaxili və təşkilatdankənar fəaliyyətlərinin təşkili və həyata keçirilməsində də inzibati fəaliyyətin rolu böyükdür. Daxili işlər orqanlarının (polisin) təşkilatdaxili və təşkilatdankənar fəaliyyətlərinin təşkilinin effektivliyindən bu orqanların (polisin) fəaliyyətinin yekun nəticələri bilavasitə asılıdır. Ona görə bu fəaliyyət forması mahiyyətinə görə mühüm əhəmiyyət kəsb edir.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin xarakterik əlamətləri aşağıdakılardır:

- **dövlət-hakimiyyət xarakterli olması;**
- **təşkilati xarakterli olması;**
- **inzibati fəaliyyətin həyata keçirilməsi prosesində onun icra hakimiyyətinin müvafiq orqanlarına tabeçiliyi və nəzarət altında olması;**
- **mərkəzləşdirilmiş rəhbərlik elementlərinin operativ (bilavasitə) idarəetmə ilə əlaqələndirilməsi;**
- **qanunqüvvəli xarakterliyi;**
- **profilaktika istiqamətli xarakterliyi.**
-

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin dövlət hakimiyyət xarakterliyi – bu orqanlar tərəfindən onların üzərinə qoyulmuş inzibati-hüquqi səlahiyyətlərin qanunla ciddi müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlətin adından həyata keçirilməsində öz əksini tapır. Daxili işlər orqanlarının (polisin) əməkdaşları inzibati funksiyaları yerinə yetirərkən icrası məcburi olan göstərişlər vermək, zəruri hallarda məcburetmə təsir tədbirlərini tətbiq etmək hüququna malik olan idarəetmə subyekti kimi (hakimiyyət nümayəndəsi kimi) çıxış edirlər. (m.18. İctimai qayda və ictimai təhlükəsizlik sahəsində polis əməkdaşının hüquqları. «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu). Buna görə də idarəetmə obyektləri ilə münasibətdə daxili işlər orqanlarının (polisin) icraedici fəaliyyətləri eyni zamanda sərəncamverici fəaliyyətdən də ibarət olur. Daxili işlər orqanlarının

(polisin) məhz bu sərəncamverici səlahiyyətlərində inzibati fəaliyyətin dövlət-hakimiyyət xarakterliyinə malik olması öz ifadəsini tapır.

Daxili işlər orqanlarının inzibati fəaliyyəti – **bilavasitə təşkiledici fəaliyyətdir.** İnzibati fəaliyyətin təşkiletmə mahiyyəti öz ifadəsini daxili işlər, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki vəzifələrin həll edilməsi üzrə əhalinin bu fəaliyyətin həyata keçirilməsi prosesində birgə müəyyən məqsədə yönəldilmiş fəali1`yyətlərinin təşkil edilməsində tapır. Bu məqsədlərlə də daxili işlərin idarə edilməsi sisteminin fəaliyyət göstərməsi ilə bağlı məsələlər həll edilir, daxili işlər sahəsində ictimai münasibətlərin iştirakçılarının fəaliyyətləri əlaqələndirilir, bu sahədə birgə görülən işlər təşkil edilir, onun yerinə yetirilməsi üzrə yoxlama və nəzarət həyata keçirilir.

Daxili işlər orqanlarının inzibati fəaliyyətinin icra hakimiyyətinin müvafiq orqanlarına tabeçiliyi və nəzarət altında olması xarakterliyi – hüquqpozmalarla mübarizənin təşkilində göstərilən orqanların rolunu yüksəldir, polisin, dövlət yol polisi xidmətinin və digər orqanların, xidmətlərin qarşılarına qoyulmuş vəzifələrin yerinə yetirilməsi üzrə onların fəaliyyətlərini gücləndirir, onların işlərinə nəzarətin effektivliyini təmin edir, daxili işlər orqanlarının (polisin) müxtəlif hüquq mühafizə orqanları ilə ictimai qurumlarla fəaliyyətlərinin əlaqələndirilməsinə kömək edir. Daxili işlər orqanlarının inzibati fəaliyyətinin bu əlaməti Azərbaycan Respublikasının müxtəlif normativ-hüquqi aktlarında öz əksini tapmışdır. Məsələn: "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (28 oktyabr 1999-cu il) 12-ci maddəsinə əsasən, polisin fəaliyyətinə nəzarətin həyata keçirilməsi müəyyən edilmişdir. Bu Qanunun 12-ci maddəsinin 1-ci bəndinə əsasən "Polis haqqında" Qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.

"Polis haqqında" Qanunun 12-ci maddəsinin 2-ci bəndinə əsasən polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

"Polis haqqında" Qanunun 12-ci maddəsinin 2-ci bəndinə əsasən isə polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirirlər. Bu orqanların səlahiyyətləri müvafiq olaraq "Məhkəmələr və hakimlər haqqında" (10 iyun 1997-ci il) və "Prokurorluq haqqında" (7 dekabr 1999-cu il) Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmişdir.

Daxili işlər orqanlarının inzibati fəaliyyəti - mərkəzləşdirilmiş rəhbərlik elementlərinin operativ (bilavasitə) idarəetmə ilə əlaqələndirilməsi ilə xarakterizə olunur. Mərkəzləşdirilmiş rəhbərlik daxili işlər orqanlarının (polisin) fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsində, ümumi qaydaların və normativlərin və s. təyin müəyyən edilməsində ifadə olunur. Operativ (bilavasitə) idarəetmə üçün idarəetmənin subyekti və obyekti arasında düzünə əlaqələrin mövcud olması xarakterikdir.

Daxili işlər orqanlarının inzibati fəaliyyəti – qanunqüvvəli xarakterə malikdir. Bu əlamətin məzmunu daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin istiqamətlərinin və məqsədlərinə nail olmanın əsas vasitələrini qanunla müəyyən edilməsindən ibarətdir. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin bu əlaməti çox vacibdir, çünki onun əhatə etdiyi sahə son dərəcədə genişdir. O, həmişə adətən vətəndaşlarla, idarə, müəssisə, təşkilatlarla və vəzifəli şəxslərlə münasibətdə həyata keçirilir. Qanundan istənilən kənara çıxma vətəndaşların, orqanların, idarə, müəssisə və təşkilatların hüquqlarına və qanuni mənafelərinə əhəmiyyətli dərəcədə zərər vura bilər.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin qanunqüvvəli olması mühüm əhəmiyyət kəsb edir. Çünki, bu fəaliyyət prosesində hər şeydən əvvəl qanunun göstərişləri icra olunur. Qanunun normaları, daxili işlər orqanları (polis) tərəfindən konkret həyati vəziyyətlərlə və şəraitlərlə bağlı olaraq tətbiq edilir. Belə ki, daxili işlər orqanları (polis) və onların vəzifəli şəxsləri məzmunu qanunun birbaşa göstərişlərinin icra edilməsindən ibarət olan bilavasitə göstərişlər verə bilərlər (məsələn: əməkdaşın mükafatlandırılması haqqında əmr vermək), və yaxud da hərəkətlər edə bilərlər (məsələn: hüquqpozmasının qarşısının alınması).

İnzibati fəaliyyətin həyata keçirilməsi prosesində səlahiyyətli daxili işlər orqanları (polis) idarənin (təşkilatın) normativ-hüquqi aktlarını işləyib hazırlayır, qəbul edir və dərc edir. Məsələn: DİN-in təlimat, nizamnamə, əsasnamə, əmr, göstəriş və s. Onlarda olan normalar və davranış qaydaları qanunqüvvəli xarakter daşıyır, çünki bu aktlar qanunun tələblərinin icra olunması, onların detallaşdırılması və konkretləşdirilməsi məqsədi ilə qəbul edilir.

Qanunvericiliyə müvafiq olaraq, daxili işlər orqanları (polis) və onların vəzifəli şəxslər hüquqpozan şəxslərin hüquqi məsuliyyətə cəlb edilməsi, onlara qarşı inzibati və cinayət-hüquqi təsir tədbirlərinin tətbiq edilməsi üzrə fəaliyyəti müstəqil həyata keçirmək hüququna malikdirlər. Məlum məsələdir ki, bu fəaliyyət qanunun tələblərinə ciddi müvafiq olaraq həyata keçirilməlidir.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin profilaktik istiqamətliliyi – əvvəl, ictimai qayda və ictimai təhlükəsizlik sahələrində sivil münasibətlərin inkişafı, daxili işlərin bu və digər sahələrində müəyyən edilmiş qanunvericiliyə ciddi riayət olunması və onun pozulmasının xəbərdar edilməsi üçün maksimum şəraitin yaradılması ilə şərtləndirilən daxili işlər orqanlarının (polisin) inzibati xarakterli bütün xidmət və aparatlarının, qüvvə və vasitələrinin işinin müasir dövrün tələblərinə cavab verən səviyyədə təşkil edilməsi ilə təmin edilir. Bu işdə yüksək nailiyyətlərə yalnız ictimai qayda, ictimai təhlükəsizlik vəziyyətinin, hüquqpozmalarının törədilməsinə köməklik göstərən səbəb və şəraitin dərindən və hərtərəfli öyrənilməsi, qüvvə və vasitələrin təsirli (aktiv), əsaslandırılmış yerləşdirilməsi, həmçinin də hər bir əməkdaşın yüksək peşəkarlıq xidməti ilə nail olmaq olar.

1. 2. Daxili işlər orqanlarının inzibati fəaliyyətinin hüquqi xarakteristikası

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin hüquqi xarakteristikası – həm daxili işlər orqanları (polis), həm də onların səlahiyyətli

nümayəndələri ilə vətəndaşlar, idarə, müəssisə, təşkilatlar və onların vəzifəli şəxsləri arasında yaranan inzibati-hüquqi münasibətlərdən və onların inzibati-hüquqi tənzimlənməsindən təşəkkül tapır.

İnzibati fəaliyyət prosesində daxili işlər orqanları (polis) digər dövlət orqanları ilə, idarə, müəssisə və təşkilatlarla və vətəndaşlarla, həmçinin də öz sistemi daxilində yuxarı təbəqəli, eləcə də tabeçiliyində olan və digər orqanlarla hər gün çoxsaylı münasibətlərə girir. Bu münasibətlər inzibati-hüquqi normalarla tənzimlənir və bununla bağlı olaraq həmin münasibətlər inzibati-hüquqi münasibətlər adlandırılır. Münasibətlərin harada əmələ gəlməsindən, onların harada yaranmasından və inkişaf etməsindən (daxili işlər orqanlarından kənarda və ya onların sisteminin daxilində) asılı olaraq, həm bu münasibətləri tənzimləyən normalar, həm də bu münasibətlərin məzmunu, formaları və realizə üsulları bir-birindən fərqlənirlər. Məsələn: daxili işlər orqanlarının sisteminin daxilində idarədaxili məsələləri tənzimləyən normalar (kadrların seçilməsi, yerləşdirilməsi, öyrədilməsi, mükafatlandırılması və s.); daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi ilə bağlı olaraq yaranan münasibətləri, yəni idarədənkənar münasibətləri tənzimləyən normalar və s.

Orqanların daxili inzibati fəaliyyəti əsasən, daxili işlər orqanlarında (polis də) xidmət keçmə haqqında inzibati qanunvericiliyin normaları ilə tənzimlənir. Bu normalar daxili işlər orqanları (polis) əməkdaşlarının xidməti yerlərinin dəyişdirilməsinin, onlara xüsusi rütbələrin verilməsinin, daxili işlər orqanları (polis) əməkdaşlarının mükafatlandırılması və intizam məsuliyyətinə cəlb edilmələrinin və s. hüquqi əsaslarını təşkil edir. Belə hallarda münasibət daxili işlər orqanları ilə onun əməkdaşları arasında yaranır, həm də nəzərə almaq lazımdır ki, belə münasibətlərin məzmunu xeyli dərəcədə münasibət iştirakçılarının (subyektlərinin) tabeçilik vəziyyətləri ilə müəyyən edilir.

Qeyd etdiyimiz kimi, daxili işlər orqanlarının (polisin) daxili inzibati fəaliyyəti "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə tənzimlənir. Bu Əsasnamə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir. Adı çəkilən Əsasnamə polisdə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sisteminə daxil olan digər orqan və hissələrdə xidmət keçmənin qaydalarını və şərtlərini, bu orqanların vəzifəli şəxslərinin hüquqi vəziyyətinin əsaslarını müəyyən edir.

Daxili işlər orqanlarının xarici (idarədənkənar) inzibati fəaliyyəti – daxili işlər orqanlarının (polisin) göstərişlərinin (sərəncamlarının) və ya onun səlahiyyətli nümayəndələrinin bu hüquq münasibətlərinin digər tərəfi üçün məcburi xarakter daşıması ilə xarakterizə olunur. Məsələn: dövlət yol polisi əməkdaşının yol hərəkəti qaydasını pozan nəqliyyat vasitəsinin saxlanılması barədə göstərişi, icazə sistemi təsiri altına düşən ov silahının və digər obyektlərin əldə edilməsinə və saxlanmasına icazənin verilməsi zamanı zəruri sayılan sənədlərin icazə sistemi inspektoru tərəfindən tələb edilməsi; hüquqpozmanın dayandırılması haqqında polis əməkdaşının tələbi və s.

Daxili işlər orqanlarının (polisin) xarici (idarədənkənar) inzibati fəaliyyəti barədə yuxarıda deyilənlər qətiyyən daxili işlər orqanlarının (polisin) iştirakı ilə yaranan bütün münasibətlərin "hakimiyyət-tabeçilik" prinsipi üzrə yaranmasının təsdiq edilməsi üçün əsas vermir.

Daxili işlər orqanlarının (polisin) və onların əməkdaşlarının xarici (idarədənkənar) inzibati fəaliyyətinin profilaktik xarakterliyi – bu fəaliyyətin həyata keçirilməsi prosesində daha yüksək nailiyyətlərə nail olmaq məqsədilə tərəflərin bərabərliyi və əməkdaşlığı ilə xarakterizə olunan münasibətlərin yaradılmasının zəruriliyi ilə şərtləndirir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə profilaktik xarakterli müxtəlif məzmunlu tədbirlərin həyata keçirilməsi məsələləri üzrə polis yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, vətəndaşların iş, təhsil və yaşayış yerləri üzrə yığıncaqları, təhsil və səhiyyə müəssisələri, eləcə də idarə, müəssisə və təşkilatların müdiriyyətləri və ictimaiyyətin nümayəndələri ilə belə münasibətlərə girir. Cinayətkarlığa və digər hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsinin əlaqələndirilməsi üzrə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Milli Təhlükəsizlik Nazirliyi, Prokurorluq və Ədliyyə Nazirliyi arasındakı münasibətləri buna misal olaraq göstərmək olar.

Daxili işlər orqanlarının (polisin) ayrı-ayrı orqan və xidmətlərinin inzibati fəaliyyətini daha da ətraflı və dərindən xarakterizə etmək məqsədi ilə onların hər birisinin ümumi vəzifələri ilə yanaşı, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin müəyyən sahəsini əhatə edən özlərinin konkret vəzifələrinə malik olmalarını da nəzərə almaq lazımdır. Məsələn: Polisin əsas vəzifələri, polis əməkdaşının ümumi vəzifələri və polisin fəaliyyətinin əsas istiqamətlərinin hər birisinin qarşısında duran əsas vəzifələr "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir. "Polis haqqında" Qanunla müəyyən edilmiş polisin konkret vəzifələri səciyyəvi formalarda həyata keçirilir. Məsələn: küçələrdə, parklarda, meydanlarda və s. ictimai yerlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə polisin post-patrul xidməti naryadları tərəfindən xidmətin aparılması yolları ilə nail olunur. Bu vəzifələrin yerinə yetirilməsi prosesində yaranan münasibətlər müvafiq qanunvericiliklə tənzimlənir.

Beləliklə, daxili işlər orqanlarının inzibati fəaliyyətinin bu və ya digər konkret istiqamətlərində yaranan ictimai münasibətlərin xüsusiyyətləri - bir tərəfdən xüsusi hüquqi aktların mövcud olması, digər tərəfdən isə həyatda bu aktların tətbiq edilməsi prosesində xüsusi fəaliyyət (hərəkət) formalarının mövcud olması ilə şərtləndirilir.

İnzibati-hüquqi vasitələrlə oxşar (eyni cinsli) vəzifələrin həll edilməsi əlavə olaraq yaranan ictimai münasibətlərin xarakteri ilə müəyyən edilən, eyni tipli hərəkətlərin edilməsi ilə həyata keçirilir. Belə növ hərəkətlərin məcmusu inzibati fəaliyyətin növünü təşkil edir. Məsələn: polisin post-patrul xidməti; polis sahə inspektorları xidməti; icazə sisteminin həyata keçirilməsi və s.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin forması – daxili işlər orqanlarının (polisin) qarşısında duran vəzifələrin əməli olaraq yerinə yetirilməsi

məqsədi ilə törədilən konkret eyni tipli (cinsli) hərəkətlərin təşkilati-hüquqi xarici təzahür formasıdır.

Deməli, *forma* – inzibati fəaliyyəti həyata keçirən daxili işlər orqanlarının (polisin) və onların vəzifəli şəxslərinin fəaliyyətinin mahiyyətinin obyektivləşdirilmiş ifadə edilmə formasıdır. Bu zaman forma – daxili işlər orqanlarının (polisin) fəaliyyətinin məzmununu açıqlamaqla yanaşı, onun həyata keçirilməsinin konkret yollarını da göstərir.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin formasını – hüquqi məzmununa görə aşağıdakı iki növə bölmək olar:

- **hüquqi;**
- **qeyri-hüquqi.**
-

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin hüquqi formasının məzmunu - inzibati fəaliyyətin bu fəaliyyət formasında həyata keçirilməsinin hüquqi nəticə yaratmasından, yəni bu fəaliyyət formasında edilən hərəkətlərin hüquqi nəticə yaratmasından ibarətdir. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin hüquqi forması onun həyata keçirilməsi zamanı onda inzibati fəaliyyətin subyektlərinin dövlət-hakimiyyət, icraedici-sərəncamverici, qanunqüvvəli xarakterli səlahiyyətləri daha aydın surətdə ifadə olunması ilə xarakterizə olunur.

DİO-nun (polisin) inzibati fəaliyyətinin hüquqi formasına onun həyata keçirilməsi prosesində aşağıdakı kimi hərəkətlərin yerinə yetirilməsini misal olaraq göstərmək olar:

– polis əməkdaşının mükafatlandırılması və ya intizam məsuliyyətinə cəlb edilməsi;

– inzibati xəta törətmiş şəxsin inzibati məsuliyyətə cəlb edilməsi;

– odlu silahın əldə edilməsi, saxlanılması üçün daxili işlər orqanları (polisin) tərəfindən vətəndaşa icazənin verilməsi;

– polis əməkdaşının bir xidməti sahədən digər xidməti sahəyə keçirilməsi barədə əmrin verilməsi və s.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin qeyri-hüquqi fəaliyyət formasının məzmunu isə – inzibati fəaliyyətin bu fəaliyyət formasında həyata keçirilməsinin heç bir hüquqi nəticə yaratmaması, yəni bu fəaliyyət formasında həyata keçirilən hərəkətlərinin heç birinin hüquqi nəticələr yaratmaması ilə xarakterizə olmasından ibarətdir. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin qeyri-hüquqi formasına idarəetmə üzrə təşkilati və maddi-texniki hərəkətlərin ifadə formalarını aid etmək olar. Göstərilən hərəkətlər qanuna müvafiq olaraq həyata keçirilirlər, lakin bu hərəkətlərin ifadə formaları isə fəaliyyətin ümumi prinsipləri formasında qaydalarda və əsasnamələrdə möhkəmləndirilirlər, bundan əlavə onlar həm də inzibati fəaliyyətin vəzifə və məqsədlərinə müvafiq olmalıdırlar.

Daxili işlər orqanlarının inzibati fəaliyyəti aşağıdakı formalarda həyata keçirilir:

– normayaradıcı (norma müəyyənedici);
– hüquqtətbiqedici; hüquqtətbiqedici fəaliyyət forması - öz növbəsində nizamlayıcı və hüquqmühafizəedici növlərə bölünür;
– təşkilati tədbirlərin həyata keçirilməsi;
– maddi-texniki hərəkətlərin, əməliyyatların yerinə yetirilməsi.
–

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin normayaradıcı fəaliyyət formasına – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əsasnamələrinin, nizamnamələrinin, təlimatlarının, göstərişlərinin, əmrlərinin və s. normativ-hüquqi aktlarının qəbul edilməsini və nəşr edilməsini misal olaraq göstərmək olar.

Daxili işlər orqanlarının inzibati fəaliyyətinin hüquqtətbiqedici fəaliyyət formasına **isə** – daxili işlər orqanı (polis orqanı) rəisinin bu və ya digər əməkdaşın vəzifəyə təyin edilməsi haqqında əmrini (bu, hüquqtətbiqedici fəaliyyət formasının nizamlayıcı fəaliyyət formasıdır) və ya daxili işlər orqanı (polis orqanı) rəisinin inzibati xəta törətmiş şəxsin inzibati cərimə formasında inzibati məsuliyyətə cəlb edilməsi haqqında qərarını (bu isə hüquqtətbiqedici fəaliyyət formasının hüquqmühafizəedici formasıdır) misal olaraq göstərmək olar.

Daxili işlər orqanlarının(polisin) inzibati fəaliyyətinin təşkilati tədbirlərin həyata keçirilməsi fəaliyyət formasına aşağıdakı kimi təşkilati tədbirlərin həyata keçirilməsini aid etmək olar:

– müşavirənin keçirilməsi;
– məsləhətlərin verilməsi;
– təlimatlandırma;
– təcrübə mübadiləsi;
– profilaktik söhbətlərin aparılması;
– şəraitin öyrənilməsi və qiymətləndirilməsi;
– öyrətmə və s. kimi təşkilati tədbirlərin həyata keçirilməsini.

Daxili işlər orqanlarının maddi-texniki hərəkətlərinin, əməliyyatlarının yerinə yetirilməsi fəaliyyət forması – məlumatlandırıcı materialların, arayışların, hesabatların, icmalların hazırlanması və işlənməsi, uçot-statistik işin, kargüzarlığın aparılması kimi ifadə olunaraq, daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin normayaradıcılıq, hüquqtətbiqedici və təşkilati tədbirlərinin keçirilməsi fəaliyyət formalarının həyata keçirilməsi üçün ilkin şərait kimi zəruri olan fəaliyyət formasıdır.

2. 2. Polisin inzibati fəaliyyətinin formalarının anlayışı, növləri və onların məzmunu

Polisin inzibati fəaliyyətinin funksiyaları bu fəaliyyəti həyata keçirən subyektlərin konkret hərəkətlərində realizə olunur. İnzibati fəaliyyətin funksiyalarını həyata keçirən subyektlərin hərəkətləri isə öz xarici təzahür formalarını fəaliyyətlərinin müəyyən formalarında tapır.

Beləliklə, forma dedikdə – subyektərin hərəkətlərinin mahiyyətinin obyektivləşdirilmiş ifadə olunması başa düşülür. Polisin inzibati fəaliyyətinin funksiyaları praktiki olaraq bu fəaliyyətin müəyyən formalarının vasitəsi ilə həyata keçirilir və bu fəaliyyətin səmərəliliyi müəyyən dərəcədə bu və ya digər formalardan istifadə olunmasından asılıdır. Formalar inzibati fəaliyyətin funksiyalarının məqsədəuyğun yerinə yetirilməsinin təmin edilməsinə xidmət edirlər.

Polisin inzibati fəaliyyətinin vəzifə və funksiyalarının müxtəlifliyi bu fəaliyyətin hüquq normaları ilə nəzərdə tutulan müxtəlif formalarının mövcud olmasını şərtləndirir. Formalar polisin hüquqi vəziyyətini müəyyən edən qanunvericilikdə, inzibati fəaliyyəti və onun subyektlərinin fəaliyyətini tənzimləyən əsasnamələrdə, nizamnamələrdə, təlimatlarda və digər aktlarda möhkəmləndirilir. Bununla yanaşı, inzibati fəaliyyətin funksiyalarını həyata keçirmək üçün onun subyektləri yalnız müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulmuş formalardan istifadə edə bilərlər. Çünki, normativ-hüquqi aktlarda nəzərdə tutulmuş məcburi formalara riayət edilməməsi subyektlərin hərəkətlərinin qeyri-qanuni və ya mübahisəli olmasına səbəb olur.

Bununla yanaşı, polisin inzibati fəaliyyətinin yaradıcılıq xarakteri bu fəaliyyətin subyektlərinə qanunvericiliklə müəyyən edilmiş bu və ya digər formaların seçilməsində müstəqilliyin verilməsinə imkan yaradır. Müvafiq formaların seçilməsi konkret həyati vəziyyətlərdən, fəaliyyətin səmərəliliyinin və məqsədəuyğunluğun tələblərindən asılı olaraq həyata keçirilir.

Polisin inzibati fəaliyyətinin həyata keçirilməsi prosesində konkret formanın növünün seçilməsi inzibati fəaliyyətin subyektlərinin üzərinə düşən vəzifə və funksiyaların onlar tərəfindən yerinə yetirilməsi ilə bağlı olan hərəkətlərin xarakteri ilə müəyyən edilir.

Belə ki, bəzi hallarda belə hərəkətlərin yerinə yetirilməsi hüquqi nəticələrin yaranmasına səbəb olur, digər hallarda isə onların yerinə yetirilməsi heç bir hüquqi nəticə yaratmır. Məsələn: hüquqi təbliğatın aparılması; qabaqcıl təcrübənin öyrənilməsi; ictimai qaydanın qorunmasıvə ictimai təhlükəsizliyin təmin edilməsində iştirak edən ictimai qurumların üzvlərinin təlimatlandırılması və s.

Buna müvafiq olaraq, polisin inzibati fəaliyyətinin formalarını hüquqi məzmununa görə aşağıdakı iki növə bölmək qəbul edilmişdir:

- hüquqi;
- qeyri-hüquqi.

Polisin inzibati fəaliyyətinin hüquqi formaları – onlarda inzibati fəaliyyətin subyektlərinin səlahiyyətlərinin dövlət-hakimiyyət, idarəçilik-icraçılıq, qanun qüvvəli xarakterə malik olması daha aydın formada ifadə olunması ilə xarakterizə olunur.

Polisin inzibati fəaliyyətinin hüquqi formaları məzmunlarına, müəyyən məqsədə yönəldilməsinə, ifadə olunma üsullarına görə təsnifləşdirilirlər.

Polisin inzibati fəaliyyətinin hüquqi formalarını məzmunlarına görə ümumiyyətlə aşağıdakı iki növə bölünməsi qəbul edilmişdir:

- normayaradıcı;
- hüquqtətbiqedici.

Polisin inzibati fəaliyyətinin subyektləri, ümumiyyətlə normayaradıcılıq formasından praktiki olaraq istifadə etmirlər, çünki normayaradıcılıq formasının həyata keçirilməsi polis orqanlarının səlahiyyətlərinə aiddir.

Polisin inzibati fəaliyyətinin hüquqtətbiqetmə forması bu fəaliyyətin əsas hüquqi formasıdır. Polisin hüquqtətbiqedici inzibati fəaliyyəti – fərdi aktın qəbul edilməsi məqsədi ilə subyektlərin hərəkətlərində konkret hüquqi əhəmiyyət kəsb edən faktın müvafiq hüquq normasına əsaslandırılmasından ibarətdir.

Polisin inzibati fəaliyyətinin hüquqtətbiqedici forması özündə aşağıdakı kimi hərəkətlərin həyata keçirilməsini birləşdirir:

- subyekt tərəfindən işin faktiki vəziyyətinə uyğun olaraq normanın tətbiq edilməsinin müəyyən edilməsi;
- məlum vəziyyətə tətbiq ediləcək müvafiq hüquq normalarının seçilməsi, axtarılması, yəni normanın hüquqi qüvvəsinin həqiqiliyinin yoxlanılması, zaman və məkana görə onun təsir qüvvəsi həddinin aşkar edilməsi;
- normaların mənasının və məzmunun öyrənilməsi, yəni onun şərh edilməsi;
- iş üzrə qərarın, fərdi aktın qəbul edilməsi;
- hüquq normasının tətbiq edilməsi ilə aktının icra edilməsi.

Hüquqtətbiqedici formanın vasitəsi ilə həll edilən işlərin və məsələlərin xarakterindən asılı olaraq, hüquqtətbiqedici fəaliyyət formasının xüsusiyyət-lərinin özü aşağıdakı iki formaya bölünür:

- nizamlayıcı;
- hüquqmühafizəedici.

Hüquqtətbiqetmənin nizamlayıcı forması – təşkilati, idarəçilik – sərəncamvericilik xarakterli konkret işlərin həll edilməsi üçün (məsələn: vəzifəyə təyin etmə, polis əməkdaşına tapşırıqların verilməsi və s.), vətəndaşların, dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının, idarə, müəssisə və təşkilatların eləcə də hüququn digər subyektlərinin hüquq, azadlıq və qanuni mənafelərinin həyata keçirilməsi üçün (məsələn: vətəndaşa ov silahının əldə edilməsi üçün icazənin verilməsi; avtomotonəqliyyat vasitələrinin qeydiyyata alınması; idarə, müəssisə və təşkilatlara icazə sistemi təsiri altına düşən predmetlərin alınmasına icazənin verilməsi və s.) istifadə olunur.

Hüquqtətbiqetmənin hüquqmühafizəedici formasının vasitəsi ilə – polisin inzibati fəaliyyəti sahəsində hüquq normaları ilə nizama salınan ictimai münasibətlərin mühafizəsi həyata keçirilir, onların toxunulmazlığı təmin edilir. Şəxsiyyətin, onun hüquq və azadlıqlarının mühafizəsi, vətəndaşların, dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının, idarə, müəssisə və təşkilatların qanuni mənafelərinin mühafizəsi həyata keçirilir.

İnzibati-hüquqi və digər hüquqi vəzifələri yerinə yetirməyən şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş qaydada dövlətin məcburetmə təsir tədbirləri tətbiq edilir.

Polisin inzibati fəaliyyətinin hüquqtətbiqedici (nizamlayıcı və hüquqmühafizəedici) formaları müəyyən məqsədə yönəldilməsinə görə (istifadə edilmə məqsədinə görə) aşağıdakı iki formaya bölünür:

- daxili;
- xarici.

Polisin inzibati fəaliyyətinin hüquqtətbiqedici fəaliyyət formasının daxili fəaliyyət forması aşağıdakı kimi təşkilatdaxili fəaliyyətin həyata keçirilməsi üçün istifadə olunur:

- ştat məsələlərinin həll edilməsi;
- kargüzarlıq işinin aparılması;
- inzibati fəaliyyətin xidmətlərinə, bölmələrinə və digər subyektlərinə bilavasitə rəhbərliyin və idarəetmənin həyata keçirilməsi;
- inzibati fəaliyyətin maddi-texniki, digər təmin etmə məsələlərinin həll edilməsi və s.

Polisin inzibati fəaliyyətinin hüquqtətbiqedici fəaliyyət formasının xarici fəaliyyət forması – inzibati fəaliyyətin məzmununu təşkil edən, bu fəaliyyətin subyektlərinin üzərinə düşən vəzifə və funksiyaların yerinə yetirilməsini təmin etmək məqsədi ilə istifadə olunur.

Polisin inzibati fəaliyyətinin hüquqtətbiqedici fəaliyyət formaları (nizamlayıcı və hüquqmühafizəedici; daxili və xarici) ifadə üsullarına görə aşağıdakı iki növə bölünürlər:

- sözlə (yazılı və şifahi);
- konklyudent (işarə ilə).

Polisin inzibati fəaliyyətinin bu və ya digər fəaliyyət formasının seçilməsi və onlardan və istifadə edilməsi bu fəaliyyətin hüquqi xüsusiyyətləri ilə qabaqcadan müəyyən edilir.

Polisin inzibati hüqutətbiqedici fəaliyyətinin nəticələrinin daha geniş yayılmış ifadə forması – fərdi yazılı aktların, sənədlərin qəbul edilməsidir. Hüquqtətbiqetmənin, dəqiqliyin, müəyyənliyin və s. qeyd edilməsini tələb edən məsələlərin (işlərin) həll edilməsi zamanı istifadə edilir.

Bununla yanaşı polisin inzibati fəaliyyətində hüquqtətbiqedici fəaliyyətin formalarının növlərindən biri olan şifahi sözlə ifadə formasından praktikada geniş istifadə ounur. Məsələn: şifahi əmrlərin, göstərişlərin, sərəncamların, komandaların verilməsi və s. Bu fəaliyyət formasından daha çox gündəlik operativ xarakterli məsələlərin həll edilməsi zamanı tez-tez istifadə olunur.

Hüquqtətbiqedici fəaliyyət formasının ifadə formalarından biri də inzibati fəaliyyət subyektlərinin konklyudent (işarə ilə) fəaliyyət formasıdır. Bu fəaliyyət formasında inzibati fəaliyyətin subyektlərinin qərarlarını açıq ifadə edən müəyyən işarələrin, şərti siqnalların, hərəkətlərin, nişanların və digər konklyudent hərəkətlərin edilməsi (işarə ilə göstərilən hərəkətlərin) köməkliyi ilə ifadə olunur. Belə işarələrə, hərəkətlərə misal olaraq, YPX əməkdaşlarının nəqliyyatın və piyadaların hərəkətlərini nizamlayan işarələrini; post-patrul xidməti əməkdaşlarının verdikləri siqnalları – fitləri və s. göstərmək olar.

Polisin inzibati fəaliyyətinin qeyri-hüquqi fəaliyyət formalarına aşağıdakı ifadə formaları aiddir:

- təşkilati hərəkətlər həyata keçirilməsi;
- maddi-texniki hərəkətlərin yerinə yetirilməsi.

Polisin inzibati fəaliyyətinin qeyri-hüquqi fəaliyyət forması, bu fəaliyyətin hüquqi forması kimi inzibati fəaliyyətin subyektlərinin səlahiyyətləri ilə bağlıdır, onların həcmi də bu fəaliyyətin məqsəd və vəzifələrinə uyğun olmalıdır.

Təşkilati tədbirlərin həyata keçirilməsi aşağıdakı formalarda ifadə oluna bilər:

- qabaqcıl təcrübənin öyrənilməsində, ümumiləşdirilməsində və yayılmasında;
- icraçıların öyrədilməsində, onların təlimatlandırılmasında, yerlərdə onlara təcrübi köməkliyin göstərilməsində;
- elmin və texnikanın nailiyyətlərinin tətbiq edilməsi üzrə elmi cəhətdən əsaslandırılmış tövsiyələrin və təkliflərin işlənib hazırlanmasında;
- qabaqcıl iş təcrübəsinin yayılmasında və s.

Təşkilati tədbirlərin həyata keçirilməsi – konkret inzibati-hüquqi münaisbətlərin bilavasitə yaranması, dəyişməsi və xitam olunması ilə bağlı olmur. Belə tədbirlər cari inzibati fəaliyyət prosesində fəaliyyətin səmərəliliyinin artırılması məqsədi ilə həyata keçirilir.

Maddi-texniki hərəkətlərin yerinə yetirilməsi – yardımçı əhəmiyyətə malikdir. Lakin onların köməkliyi ilə inzibati fəaliyyətin bütün fəaliyyət formalarının həyata keçirilməsi maddi cəhətdən təmin edilir.

Maddi-texniki hərəkətlərə aşağıdakı kimi hərəkətlərin həyata keçirilməsi addir:

- arayışların, hesabatların, məruzələrin və s. hazırlanması;
- kargüzarlığın aparılması;
- sənədlərin tərtib edilməsi;
- faktların qeydiyyata alınması;
- materialların və sənədlərin çoxaldılması və s.

Maddi-texniki hərəkətlər və onların ifadə formaları inzibati fəaliyyətin subyektlərinin fəaliyyətinin səmərəliliyini və mdaddi-texniki bazasını təmin etməyə xidmət edir. Onlar fəaliyyət prosesini yüngülləşdirir, onun səmərəliyini və mədəniliyini yüksəldir.

1.3. Daxili işlər orqanlarının inzibati fəaliyyətinin prinsipləri və onların məzmunu

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin prinsipləri – daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətində rəhbər tutulan ideyalardan və əsas müddəalardan ibarətdir. Prinsiplər özündə ictimai inkişafın qanuna-uyğunluqlarının obyektivliyini, sosial idarəetmə praktikasının əsas əlamətlərini ümumilikdə, daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətini isə xüsusilə əks etdirir.

Prinsiplərin məzmunu inzibati fəaliyyətin mahiyyətini, onun daha xarakterik əlamətlərini obyektiv olaraq əks etdirir. Prinsiplər hüquq normaları formasında ifadə olunaraq, inzibati fəaliyyətin təşkil edilməli və həyata keçirilməli olmasının ümumi müddəalarından ibarətdir. Belə keyfiyyətə malik olmaqla prinsiplər, icrası və riayət olunması məcburi olan hüquqi tələblər əhəmiyyətinə malik olurlar.

Bununla yanaşı, inzibati fəaliyyətə tənzimləyici təsir göstərən bəzi ideyalar – prinsiplər, öz əkslərini qanunvericilikdə müvafiq ifadə formalarda tapmırlar, beləliklə də onlar daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyəti üçün hüquqi və səciyyəvi xarakter daşımırlar. Belə ideyalara – prinsiplərə humanizm, sosial ədalətlilik, demokratizm və s. kimi prinsipləri aid etmək olar. Bu qrupa aid olan ideyalar – prinsiplər sosial prinsiplər adlandırılır və onlar ümumsosial xarakteri daşıyırlar. Lakin buna baxmayaraq, sosial ədalətlilik, humanizm, demokratizm ideyaları və digər prinsiplər daxili işlər orqanlarının (polisin) bütün fəaliyyətində rəhbər tutulmalıdır.

Vətəndaşların həyatının, hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin, cəmiyyətin mənafelərinin mühafizəsi və daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin digər humanitar məqsədlərinə yalnız vətəndaşlarda müdafiə hüququnun, təqsirsizlik prezumpsiyasının və digər mənəvi - rəhbər ideyalarının mövcud olması hallarında sosial ədalətlilik, humanizm, demokratizm prinsipləri və digər prinsiplər əsasında nail olmaq olar.

Məqsədlər (vəzifələr) nəinki inzibati fəaliyyətin xarakterini və onun prinsiplərinin sistemini müəyyən edir, həm də özləri də prinsiplərlə ölçülürlər. Məqsəd – inzibati fəaliyyətin nəyə yönəldilməsini müəyyən edir, prinsiplər isə – onun necə, hansı formalarda həyata keçirilməsi suallarına cavab verir. Prinsiplər fəaliyyət formalarına, metodlarına, strukturuna, kadrlarına və prosesinə təsir göstərir.

Prinsiplərdə aşağıdakı əsas tələblər öz əksini tapır:

- inzibati fəaliyyət sahəsinə aid olan daxili işlər orqanlarının (polisin) xidmət və bölmələrinin yaradılmasına və təşkil edilməsinə qoyulan tələblər;

- inzibati fəaliyyət sahəsinə aid olan xidmət və bölmələr tərəfindən daxili işlər orqanlarının (polisin) funksiyalarının onlar tərəfindən həyata keçirilməsinə qoyulan tələblər;

- inzibati fəaliyyətin strategiyasına, taktikasına və iş üslubuna qoyulan tələblər;

- inzibati fəaliyyətin subyektləri və obyektləri arasında yaranan qarşılıqlı əlaqə münasibətlərinin xarakterinə qoyulan tələblər.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin prinsipləri – bütövlükdə inzibati fəaliyyətin ümumi başlanğıcı kimi qəbul edilən, onlara xas olan ümumi əlamətlərin obyektiv olaraq qüvvədə olan qanunauyğunluqlarının ifadə formasının nəticələridir.

Prinsiplər insanlar tərəfindən müəyyən edilir və formalaşdırılır. Lakin prinsiplərin insanlar tərəfindən yaradılması (müəyyən edilməsi) heç də onların təmiz subyektiv xarakter daşıması demək deyil. Prinsiplər ictimai münasibətlərin inkişafının real proseslərinin və təzahürlərinin mahiyyətini əks etdirir, yəni onlar obyektiv xarakter daşıyır.

Beləliklə, prinsiplər inzibati fəaliyyətin əsasını təşkil edirlər. Bütün digər xüsusiyyətlər və münasibətlər də əsaslardan yaranır. Buradan belə nəticəyə gəlmək olar ki, fəaliyyətin prinsipial əsası necədirsə – onun mahiyyəti də o cürədir.

Prinsiplərin təsnifatı

DİO-nun (polisin) inzibati fəaliyyətinin prinsipləri bir-biri ilə bu və ya digər dərəcədə əlaqələndirilmiş və bir-birindən asılılıq formasında olaraq onun sistemini təşkil edir. Buna görə də inzibati fəaliyyətin effektivliyinə prinsiplərin bütün sistemini ardıcıllıqla və onların hər birini ayrılıqda tətbiq etməklə nail olmaq olar. Bununla yanaşı, sistemdən bu və ya digər prinsipin ayrılması hər bir prinsipin konkret rolunun müəyyənləşdirilməsinə imkan yaradır və bu da onların praktiki tətbiqini asanlaşdırır.

Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin prinsiplərinin sistemində *sosial-hüquqi və təşkilati prinsipləri fərqləndirirlər*.

Sosial-hüquqi prinsiplərə – ümumsosial xarakter daşıyan və inzibati fəaliyyəti həyata keçirən bu və ya digər orqanın səviyyəsindən və sistemdə tutduğu yerdən, əməkdaşın tutduğu vəzifəsindən asılı olmayaraq, inzibati fəaliyyətdə realizə olunan prinsiplər aiddir. Sosial-hüquqi prinsiplərin hər birinin rolunun əhəmiyyəti onların daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin sosial (mənəvi, hüquqi) qaydalarının əsasını təşkil etmələri ilə şərtləndirilir.

Təşkilati prinsiplərə –daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin yaradılmasında və təşkil edilməsində rəhbər tutulan prinsiplər aiddir. Bu prinsiplər inzibati fəaliyyəti həyata keçirən aparat, xidmət, orqan, bölmə və digər təşkilati strukturların yaradılması zamanı rəhbər tutulur.

Göstərilən prinsiplərin tətbiq edilməsi orqanların fəaliyyət göstərməsinin və strukturunun daha çox optimal variantlarının seçilməsinə, fəaliyyətin subyektləri arasında səlahiyyətlərin səmərəli bölüşdürülməsinə, inzibati fəaliyyətin funksiyalarının həyata keçirilməsi zamanı paralelliyi və təkrarlılığı aradan qaldırmağa imkan verir.

İndi isə gəlin bu prinsipləri ayrı-ayrılıqda nəzərdən keçirək.

Sosial-hüquqi prinsiplər. Bu prinsiplərə aşağıdakı prinsiplər aiddir:

–humanizm;

– sosial ədalətlilik;
– demokratizm;
– xalqın inamına və dəstəyinə arxalanmaq;
– qanunçuluq;
– elmilik, aşkarlığın və peşə sirrinin əlaqələndirilməsi prinsipləri və s.

Humanizm. Daxili işlər orqanlarının (polisin) və onun əməkdaşlarının fəaliyyəti öz mahiyyətinə görə humanist xarakter daşıyır. Çünki, daxili işlər orqanlarının (polisin) fəaliyyəti əsasən, insanın şəxsiyyət kimi cinayətkar və digər hüquqazidd qəsdlərdən mühafizə edilməsinə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə, insanların əmin-amanlığı, istirahətliyi və əmək fəaliyyəti üçün əlverişli şəraitlərin təmin edilməsinə istiqamətləndirilmişdir. Bu prinsip öz əksini "Polis haqqında" Qanunun 4-cü maddəsinin 1-ci hissəsində, "Daxili İşlər Nazirliyi haqqında" Əsasnamənin 2.1-ci bəndində tapmışdır.

Daxili işlər orqanları, polis və onun əməkdaşları özlərinin inzibati fəaliyyət prosesində əgər hüquqazidd qəsdlərdən, təbii fəlakətlərdən və ya digər fövqəladə hadisələrdən vətəndaşların həyatına, sağlamlığına və əmlakına qarşı təhlükə yaranarsa, onların qorunması üçün tədbirlər həyata keçirirlər. Onlar hüquqpozmalardan və bədbəxt hadisələrdən zərər çəkmiş şəxslərə, həmçinin də ictimai yerlərdə köməksiz vəziyyətdə qalmış şəxslərə ilkin yardım göstərirlər, itkin düşmüş şəxslərin və qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda (məsələn: ruhi xəstələrin, azyaşlı uşaqların və s.) şəxslərin axtarışını aparırlar.

Qəzalar, yanğınlar, fəlakətlər, təbii fəlakətə və digər fövqəladə hallar zamanı onların nəticələrinin aradan qaldırılması, insanların xilas edilməsi, onlara kömək göstərilməsi, nəzarətsiz qalmış əmlakın mühafizəsi üzrə daxili işlər orqanları (polis) tədbirlər görür. Epidemiyalar zamanı karantin tədbirlərinin keçirilməsində səhiyyə orqanlarına, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerlərinin müəyyənləşdirilməsində və həmçinin də qohumları ilə əlaqəsini itirmiş şəxslərin axtarışında və s. Qırmızı Xaç və Qırmızı Aypara cəmiyyətlərinə daxili işlər orqanları (polis) köməklik göstərir.

Daxili işlər orqanlarının (polisin) inzibati-yurisdiksiya fəaliyyətinin həyata keçirilməsində humanizm prinsipinin təzahürü kimi məsuliyyətə cəlb edilən şəxsin müdafiə hüququnun təmin edilməsi; inzibati xətalar haqqında işlərin baxılması və təqsirkar şəxsə qarşı təsir tədbirlərinin və tənbehin tətbiq edilməsi zamanı onun şəxsiyyəti, yaşı, səhhəti, ailə vəziyyəti, hüquqpozmaya görə məsuliyyəti yüngülləşdirən hallar; hüquqpozmuş şəxsin baxımsız qalmış yetkinlik yaşına çatmayan uşaqlarının olması; həmçinin də baxımsız qalmış əmlak və ya yaşayış yerinin olması və digər hallar nəzərə alınması özünü göstərir.

Daxili işlər orqanları (polis) əməkdaşları tərəfindən təhqiredici, humanizmə zidd və ya vətəndaşların şərəf və ləyaqətini alçaldan hərəkətlərin edilməsi yol verilməzdir. Belə hallara yol vermə qanunvericiliklə müəyyən edilmiş qaydada həmin əməkdaşın törətdiyi hərəkətin ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq məsuliyyətə cəlb edilməsi ilə nəticələnir.

Sosial ədalətlilik. Fəaliyyət prinsipi kimi sosial ədalətlilik prinsipi –hər bir vətəndaş onun həyatına, sağlamlığına edilən qəsdlərdən müdafiəyə görə vətəndaşların hüquq, azadlıq və qanuni mənafelərinə qəsd edən hüquqazidd

əməllərdən müdafiə üçün daxili işlər orqanına (polisə) müraciət etməkdə bərabər hüquqa malik olması ilə ifadə olunur. Bu hüquqa müvafiq olaraq, vətəndaşın müraciətinə baxmaq və müraciət üzrə zəruri tədbirləri görmək orqanların vəzifəsidir.

Müzakirə etdiyimiz prinsip hüquq normalarının düzgün tətbiq edilməsinin təmin edilməsini tələb edir. Bu prinsipin tələblərinə riayət etməklə aşağıdakılar təmin edilmiş olar:

– hər bir hüquqpozma törətmiş şəxs ədalətli məsuliyyətə cəlb edilmiş olsun;

– hüquqazidd əməl ilə cəza (tənbeh) arasında uyğunluq təmin edilmiş olsun;

– heç bir günahsız şəxsin məsuliyyətə cəlb edilməsinə və cəzaya və ya tənbehə məruz qalmasına yol verilməməsi təmin edilmiş olsun və s. Və əksinə, ədalətli olardı ki, heç bir hüquqpozmuş şəxs məsuliyyətdən yayınmasın.

Daxili işlər orqanlarının (polisin) və onların əməkdaşlarının bütün hərəkətləri ədalətli olmalıdır.

Demokratizm prinsipi. DİO-nun (polisin) inzibati fəaliyyətində demokratizm prinsipi aşağıdakı vasitələrlə təmin edilir:

– *birincisi*, daxili işlər orqanları (polis) tərəfindən şəxsiyyətin, onun hüquqlarının, azadlıqlarının və vətəndaşların qanuni mənafelərinin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, qanunçuluğun möhkəmləndirilməsi vəzifələrinin həll edilməsinin vətəndaşların və ictimaiyyətin tələblərinə cavab verməsi ilə;

– *ikincisi*, inzibati fəaliyyətin demokratik prinsiplər əsasında həyata keçirilməsi ilə, yəni bu fəaliyyəti həyata keçirən orqanların xidmət və bölmələrin ictimaiyyətin nəzarəti altında fəaliyyət göstərmələri ilə; daxili işlər orqanların (polis) əməkdaşlarının əsas vəzifələrindən biri də, onların xidmət etdikləri yaşayış məntəqələrində hüquq qaydasının vəziyyəti və öz işləri barədə yerli özünüidarəetmə orqanları, əmək kollektivləri qarşısında və vətəndaşların yığıncaqlarında, yəni xalq qarşısında hesabatla çıxış etmələri ilə;

– *üçüncüsü*, inzibati fəaliyyəti həyata keçirən orqanlara və əməkdaşlara vətəndaşların aktiv kömək və yardım göstərməsi inamının olması ilə;

– *dördüncüsü*, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, yəni daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin əsas məzmununu təşkil edən sahələrdə yerli özünüidarəetmə orqanlarının və ictimai birliklərin iştirak etmələri ilə və s.

Xalqın inamına və dəstəyinə arxalanmaq. Bu prinsip demokratizm prinsipi ilə sıx əlaqədardır. Digər fəaliyyət növləri kimi inzibati fəaliyyət də yerli özünüidarəetmə orqanları, əmək kollektivləri və əhali ilə sıx əlaqədə həyata keçirilir. Daxili işlər orqanlarının (polisin) inzibati xidmət və bölmələrinin əməkdaşları hüquq qaydasının mühafizəsində iştirak edən vətəndaşların, ictimai birliklərin inamına, köməyinə və dəstəyinə arxalanmalıdır. Daxili işlər orqanları (polis) müəyyən edilmiş qaydalara müvafiq olaraq ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə fərqlənən vətəndaşları mükafatlandırmalıdır.

Bununla yanaşı hüquq qaydasının mühafizəsində iştirak edən dövlət orqanları və ictimai təşkilatlar polisin üzərinə düşən vəzifələrin yerinə

yetirilməsində ona hərtərəfli köməklik göstərməyə borcludur («Polis haqqında» Qanun m. 10).

Qanunçuluq. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə, hüquqpozmaların xəbərdar edilməsi və qarşısının alınmasına, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsinə yönəldilmiş DİO-nun (polisin) inzibati fəaliyyəti qanunlara və digər normativ-hüquqi aktlara müvafiq olaraq həyata keçirilməlidir. Bu, o deməkdir ki, polis əməkdaşlarının bütün hərəkətləri: *birincisi*, qanuna əsaslanmalıdır; *ikincisi*, qanunda və digər normativ aktda göstərilmiş qaydada və çərçivədə həyata keçirilməlidir; *üçüncüsü*, bu və ya digər ictimai münasibəti tənzimləyərkən qanunun qoyduğu məqsədlərin həyata keçirilməsi üçün qanun naminə icra edilməlidir.

Əgər qanun konkret halda hərəkət və qərarların bir neçə variantını nəzərdə tutursa, onda daxili işlər orqanlarının (polis) əməkdaşı yaranmış halların məcmusundan irəli gələrək öz mülahizəsinə görə daha optimal və səmərəli qərar qəbul etmək hüququna malikdir. Məsələn: ictimai qaydanı pozan şəxs hüquqpozmanın xarakterindən və digər hallardan asılı olaraq polis əməkdaşı tərəfindən xəbərdar edilə bilər; cərimə edilə bilər; və yaxud da həmin şəxsi inzibati məsuliyyətdən azad edilə bilər. Beləliklə, polis əməkdaşı konkret pozuntunu müstəqil olaraq hərtərəfli qiymətləndirməklə hərəkət üsulu seçir və iş üzrə daha məqsədəuyğun qərar qəbul edir. Burada məqsədəuyğunluqla özbaşınalıq arasında heç bir ümumi əlaqə olmamalıdır, çünki, o, qanuna əsaslanmalıdır və qanunla müəyyən edilmiş hədləri keçməməlidir. Qanunvericilik qanunçuluğu məqsədəuyğunluğa qarşı qoymur. Beləliklə, məqsədəuyğunluq həmişə qanuni olmalıdır.

DİO-nun (polisin) inzibati fəaliyyətində qanunçuluğa riayət olunması xüsusilə vacibdir. Belə ki, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyət şəxsiyyətin, onun sağlamlığının, hüquq və qanuni mənafelərinin müdafiəsi ilə sıx bağlıdır. Daxili işlər orqanları sisteminə daxil olan polis məcburetmənin tətbiqi üzrə geniş hüquqlara malikdir. Bununla bağlı olaraq qanunçuluğun hər hansı bir formada pozulması qəti yolverilməzdir, çünki qanunçuluğun hər hansı bir formada pozulması vətəndaşların konstitusiya hüquq və azadlıqlarının pozulması deməkdir. Polis əməkdaşının hüquqazidd hərəkətləri onun nüfuzunu sarsıdır və qanunçuluğun pozulmasının ayrı-ayrı faktları üzrə əhali bütövlükdə polisin işi haqqında mühakimə yürütməyə başlayır.

Hakimiyyətdən, xidməti vəziyyətindən sui-istifadə etmə və digər hüquqazidd hərəkətlərin törədilməsi daxili işlər orqanları (polis) əməkdaşı üçün qanunla müəyyən edilmiş məsuliyyəti yaradır. Polis əməkdaşı tərəfindən vətəndaşların hüquqları və qanuni mənafeləri pozulduqda daxili işlər orqanları onların bərpa edilməsi və vurulmuş zərərin ödənilməsi üçün tədbirlər görməli (polis) və aşkar surətdə üzr istənilməlidir.

Elmilik prinsipi. DİO-nun (polisin) inzibati fəaliyyətinin effektivliyi onun həyata keçirilməsi zamanı yaranan məsələ və problemlərin həllinə yaradıcı və elmi cəhətdən yanaşmaqdan asılıdır. Bu prinsip öz ifadəsini daxili işlər orqanlarının (polisin) işinin digər növ və istiqamətlərinin həyata keçirilməsində olduğu kimi inzibati fəaliyyətin də həyata keçirilməsində ictimai inkişafın obyektiv

qanunauyğunluqlarının və proseslərinin, elmi nailiyyətlərin daim nəzərə alınmasında göstərir.

İnzibati fəaliyyətdə elmilik hüquqpozmalara qarşı mübarizənin müvəffəqiyyətlə aparılması üçün zəruri olan, ictimai qayda və ictimai təhlükəsizlik, cinayətkarlığın vəziyyəti və digər məlumatlar barədə informasiyaların (məlumatların) toplanmasına, onların təhlilinə və ümumiləşdirilməsinə elmi metodikanın tətbiq edilməsində ifadə olunur. İnformasiyaların işlənməsi və saxlanması üçün elektron-hesablama maşınlarından istifadə edilir. Elmilik informasiyaların dəqiq təhlilini, aktual problemlərin üzə çıxarılmasını, proqnozlaşdırmanı, hüquqpozmalarla mübarizənin perspektivli planlaşdırılmasını, problemlərin həllinin daha optimal variantlarının hazırlanmasını və qarşıya qoyulmuş proqramların yerinə yetirilməsinin daha effektiv yollarının və üsullarının seçilməsini nəzərdə tutur.

Elmilik prinsipi məsələlərin həllinə kompleks, sistemli şəkildə yanaşmanı, fəaliyyətin məqsədlərinə daha az qüvvə və vasitələr sərf etməklə nail olmaq yollarının müəyyən edilməsini tələb edir.

Elmilik əməkdaşların funksional vəzifələrinin optimal olaraq müəyyənləşdirilməsində və hüquqi cəhətdən möhkəmləndirilməsində, daxili işlər orqanlarının (polisin) aparat və xidmətlərinin strukturunun təkmilləşdirilməsində ifadə olunur.

Araşdırdığımız prinsip həm də daxili işlər orqanlarında (polisdə) əməyin elmi təşkilini (ƏET), avtomatlaşdırılmış idarəetmə sistemlərindən (AİS), digər elmi-texniki vasitələrdən, təşkilati texnikalardan istifadə olunmasını nəzərdə tutur. ƏET – əməyin məhsuldarlığını əhəmiyyətli dərəcədə artırır, əməkdaşın şəxsi və iş vaxtını daha səmərəli keçirməyə kömək edir, iş proseslərinin optimallaşdırılmasına, həmçinin də əlverişli əmək şəraitinin yaranmasına kömək edir.

Elmilik prinsipi gündəlik əməli fəaliyyətdə elmi tövsiyələrin və nəticələrin istifadə edilməsini, şəxsi təcrübənin öyrənilməsini və ümumiləşdirilməsini, özünü doğrultmuş bütün müsbət təcrübələrin vaxtında aşkar edilməsi və tətbiq edilməsi üçün qəbul edilən qərarların nəticələrinin real olaraq obyektiv qiymətləndirilməsini, eləcə də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xarici və Respublikamızın qabaqcıl təşkilatçılıq təcrübəsindən yaradıcılıqla istifadə edilməsini nəzərdə tutur.

İnzibati fəaliyyətin yaxşılaşdırılması üçün psixologiyanın nailiyyətlərindən istifadə olunması, başqa sözlə desək, daxili işlər orqanı (polis) əməkdaşları tərəfindən insanların davranışına təsir edən psixoloji-pedaqoji təsir metodlarının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Aşkarlıq və peşə sirrinin əlaqələndirilməsi prinsipi. DİO-nun (polisin) inzibati fəaliyyəti vətəndaşlar, ictimaiyyət və kütləvi informasiya vasitələri üçün aşkar və açıqdır. Daxili işlər orqanları (polis) öz fəaliyyətləri, ictimai qaydanın və ictimai təhlükəsizliyin vəziyyəti, onların möhkəmləndirilməsi üzrə tədbirlər haqqında daim əmək kollektivlərini, müəssisələri, ictimai təşkilatları, kütləvi informasiya vasitələrini (radio, televizor, mətbuat), dövlət orqanlarını və əhalini məlumatlandırmalıdır.

Bununla yanaşı, dövlət və xidməti (peşə) sirr olan məlumatlar, eləcə də xidməti fəaliyyət prosesində əldə olunmuş vətəndaşların şərəf və ləyaqətinə toxunan məlumatlar qanunla nəzərdə tutulmuş hallardan başqa, aşkarlanmamalıdır.

DİO-nun inzibati fəaliyyətinin təşkilati prinsipləri. Təşkilati prinsiplərin sistemi təyinatlarına görə aşağıdakı 2 qrupa bölünür:

1. İnzibati fəaliyyəti həyata keçirən aparat və xidmətlərin təşkili prinsiplərinə;
2. İnzibati fəaliyyəti həyata keçirən aparat və xidmətlərin fəaliyyət prinsiplərinə.

Birinci qrupa aşağıdakı prinsiplər aiddir:

- sahəvi;
- ərazi;
- xətti;
- funksional;
- tabeçilik.

Sahəvi prinsip. Sahəvi prinsip inzibati fəaliyyəti həyata keçirən aparat və xidmətlərin təşkilində aparıcı rol oynayır. Ona müvafiq olaraq bu və ya digər növ inzibati fəaliyyətin həyata keçirilməsi üçün (ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi və s.) müvafiq aparat, xidmət və bölmələr yaradılır. Aparat və xidmətlərin sahəvi prinsip üzrə təşkil edilməsi ixtisaslaşdırılmanı təmin edir, işdə inzibati fəaliyyətin müxtəlif növlərinin xüsusiyyətlərini nəzərə almağa, əməkdaşların peşəkarlığını və fəaliyyətin effektivliyini artırmağa imkan verir.

Ərazi prinsipi. Bu prinsipə müvafiq olaraq inzibati fəaliyyəti həyata keçirən müxtəlif istiqamətli aparat və xidmətlərin yaradılması zamanı onların yerləşdiyi və fəaliyyət göstərdikləri inzibati ərazi qurumlarının (rayon, şəhər və s.) xüsusiyyətlərinin nəzərə alınması vacibdir.

İnzibati ərazi vahidlərinin xüsusiyyətlərinə xüsusən, coğrafi mühit, əhalinin sayı, demoqrafik mühit, əməliyyat şəraiti və s. xüsusiyyətlər aiddir.

Xətti prinsip. Bu prinsipin tətbiq edilməsi inzibati fəaliyyəti həyata keçirən elə növ aparat və xidmətlərin təşkilini təmin edir ki, bu zaman hər bir rəhbər öz səlahiyyətləri çərçivəsində tabeçiliyində olanlarla münasibətdə idarəetmənin bütün hüquq və funksiyalarına malik olur. Belə təşkiletmədə hər bir tabeçilikdə olanın yalnız bir bilavasitə rəisi olur və tabeçilikdə olanın bütün fəaliyyət məsələləri də onun səlahiyyətində olur. Xətti prinsip adətən sayına görə böyük olmayan işçilərin qrup və kollektivinin təşkili zaman və işin nisbətən mürəkkəb olmadığı və dar ixtisaslaşmanın tələb edilmədiyi yerlərdə tətbiq edilir. Bu prinsip əsasında daha çox tabeçiliyində heç kəs olmayan bilavasitə icraçılar idarə olunarkən aşağı təbəqəli aparatlar təşkil edilir. Xüsusən, polisin post-patrul xidmətinin nizami bölmələrinin təşkilinin əsasını xətti prinsip təşkil edir.

Funksional prinsip. DİO-nun (polisin) aparat, xidmət və bölmələrinin mürəkkəb strukturlu olması zamanı vahid rəhbər bütün səlahiyyətləri həyata keçirmək iqtidarında olmur. Bununla bağlı olaraq xətti struktur funksional strukturla əlaqələndirilir.

Funksional prinsipin mahiyyəti maddi-texniki (təsərrüfat), maliyyə, kadr, orqanın işinin planlaşdırılması funksiyasını və s. kimi təminedici və əlaqələndirici funksiyaları realizə edən xidmət və bölmələrin yaradılmasından və fəaliyyətindən ibarətdir. Aparatın (xidmətin) strukturunun yaradılması zamanı funksional prinsipin tətbiq edilməsi rəhbərə funksional bölmələr vasitəsi ilə konkret məsələləri həll etmək imkanını verir.

Funksional prinsip əməyin ixtisaslaşdırılmasını, məsəsələlərin peşəkarcasına həllini təşkil edir, nəzarətin təsir qüvvəsini artırır, rəhbərlərin işlərini sadələşdirir. Belə ki, burada funksional aparatlar idarəçilik təsirini xətti və sahəvi bölmələrə özləri bilavasitə deyil, onların daxil olduqları orqanın rəhbəri vasitəsilə göstərirlər.

Tabeçilik prinsipi. DİO-nun (polisin) inzibati fəaliyyətinin bu prinsipinə əsasən inzibati fəaliyyətlə məşğul olan daxili işlər orqanlarının (polisin) aşağı təbəqəli orqan, aparat, xidmət, bölmə və digər təşkilati strukturlarının gündəlik fəaliyyətlərinin dövlətin ümumi siyasətinə müvafiq olaraq istiqamətləndirilməsinə imkan yaradılır, Respublika miqyasında qabaqcıl təcrübənin ümumiləşdirilməsi ilə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin forma və metodlarının mütəmadi olaraq təkmilləşdirilməsi təmin edilir və onların gündəlik fəaliyyətlərinə nəzarət edilir.

"Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunun 12-ci maddəsinin I hissəsinə əsasən "Polis haqqında" Qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar həyata keçirilir.

Polisin fəaliyyətinə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində Daxili İşlər Nazirliyi, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Beləliklə, tabeçilik prinsipinə əsasən yerli şərait və xüsusiyyətlər nəzərə alınmaqla mərkəzləşdirilmiş (ümumi) rəhbərlik ilə bilavasitə rəhbərlik uyğunlaşdırılır.

Təşkilati prinsiplərin ikinci qrupuna – inzibati fəaliyyətin subyektləri arasında səlahiyyətlərin səmərəli bölüşdürülməsi; bu fəaliyyət subyektlərinin işlərinin nəticələrinə görə onların məsuliyyəti; vahid rəhbərliyin və kollegiallıqla uyğunlaşdırılması prinsipləri daxildir.

Səlahiyyətlərin səmərəli bölüşdürülməsi prinsipi – hər bir orqanın, aparatın, xidmətin, bölmənin və işçinin vəzifələrinin, hüquqlarının və vəzifə borclarının hüquqi cəhətdən möhkəmləndirilməsini, inzibati fəaliyyətdə onların qarşılıqlı münasibətlərinin nizamlanmasını nəzərdə tutur.

İşin nəticələrinə görə məsuliyyət prinsipi səlahiyyətlərin səmərəli bölüşdürülməsi prinsipi ilə inzibati fəaliyyəti həyata keçirən aparat, xidmət, bölmə və işçilərin öz işlərinin nəticələrinə görə məsuliyyəti prinsipi sıx bağlıdır. İnzibati fəaliyyət subyektlərinin fəaliyyətində aşkar olunan çatışmamazlıqlar və nöqsanlar onlar üçün intizam və digər məsuliyyətə səbəb olur. Məsuliyyətin müəyyən edilməsi işin keyfiyyətinin və effektivliyinin artmasına səbəb olur, əməkdaşlar tərəfindən xidməti vəzifələrinə vicdanla yanaşmağı, rəislərdə tabeçiliklərində olanlara qarşı tələbkarlığı, insanlara diqqətli və qayğıkeşliklə yanaşma münasibətini tərbiyə edir.

Təkbaşçılığın və kollegiallığın uyğunlaşdırılması. DİO-nun fəaliyyəti təkbaşçılıq prinsipi əsasında təşkil edilir. DİO-nun (polisin) fəaliyyətinin bu prinsipi əsasında təşkil edilməsi lazımi nizam-intizamı, mütəşəkkilliyi, işdə operativliyi, tapşırılmış işə görə işçinin şəxsi məsuliyyətini təmin edir.

Bununla yanaşı, təkbaşçılıq daha vacib və mürəkkəb məsələlərin kollegial surətdə müzakirəsini istisna etmir. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətində təkbaşçılığın və kollegiallığın uzlaşdırılması prinsipi aparat, xidmət və bölmələrə rəhbərlikdə təkbaşçılığın inzibati fəaliyyətin əsas kompleks məsələlərinin kollegial surətdə (kollektiv surətdə) müzakirə etməklə işin nəticələrinə görə rəhbərin şəxsi məsuliyyəti ilə uzlaşdırılmasını nəzərdə tutur. Bu da birtərəfli, subyektiv qərarların qəbul edilməsindən çəkinməyə imkan verir.

Məsələlərin kollegial müzakirəsinin yayılmış forması kimi orqan, aparat, xidmət və bölmənin rəisinin yanında əməliyyat-xidməti müşavirələrin keçirilməsini göstərmək olar. Beləliklə, təkbaşçılıq formasında operativ sərəncamvermə cari məsələlərin həlli və kollegial surətdə müzakirə edilmiş qərarların həyata keçirilməsi ilə əlaqələndirilir.

Mühazirəmizin **birinci sualının** açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki, mühazirəmizin bu sualının açıqlanması ilə əldə etdiyiniz nəzəri biliklər, sizin gələcək fəaliyyətinizdə həm nəzəri, həm də praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edəcəkdir. Birinci növbədə daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin prinsipləri, ikinci növbədə isə onların növləri barədə nəzəri biliklər əldə etmiş oldunuz.Bu nəzəri bilikləri siz gələcək xidməti fəaliyyətinizdə rəhbər tutmaqla öz xidməti vəzifələrinizi düzgün və qüvvədə olan qanunvericiliyə müvafiq olaraq yerinə yetirmiş olarsınız.

Digər tərəfdən isə bu əsas müddəaları mənimsəməklə siz, gələcək fəaliyyətlərinizdə xidməti vəzifələrinizi həm qanunvericiliyə, həm də qanunçuluğun tələblərinə müvafiq olaraq, eləcə də və insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipinə riayət edilmə formasında yerinə yetirmiş olarsınız.

Mühazirəmizin bu sualının açıqlanması vasitəsi ilə birinci növbədə daxili işlər orqanlarının (polisin) fəaliyyətinin təşkilati-hüquqi formaları içərisində daha çox istifadə olunan və öz mahiyyətinə görə daha çox əhəmiyyət kəsb edən inzibati fəaliyyət forması barəsində geniş anlayış əldə etmiş oldunuz. İkinci növbədə isə mühazirəmizin bu sualının açıqlanması vasitəsi ilə daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin mahiyyəti və əsas əlamətləri barədə nəzəri biliklər əldə etmiş oldunuz.

Mühazirəmizin bu sualının açıqlanması vasitəsi ilə ümumiyyətlə əldə etdiyimiz nəzəri biliklərin əhəmiyyəti ondan ibarətdir ki, siz onları mənimsəməklə gələcək fəaliyyətinizdə öz xidməti vəzifələrinizi düzgün, peşəkarcasına və qanunvericiliyin tələblərinə müvafiq olaraq yerinə yetirmiş olarsınız.

Sual. 2. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin formaları və onların növləri.

2. 1. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin məzmunu, funksiyaları və onların məzmunu

Dövlətin idarəetmə sahələrindən biri olan daxili işlərin idarə edilməsində polis orqanlarının üzərinə düşən vəzifə və funksiyaların yerinə yetirilməsində əsas rol inzibati-hüquqi vasitələrlə həyata keçirilən polisin inzibati fəaliyyətinə məxsusdur. Polisin bu fəaliyyəti bilavasitə şəxsiyyətin, onun hüquq və azadlıqlarının müdafiəsinə, ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə, mülkiyyətin mühafizə edilməsinə və hüquqpozmalarla mübarizəyə istiqamətləndirilmişdir.

Ölkədəki hüquq qaydasının vəziyyəti polisin inzibati fəaliyyətinin səmərəliyindən bilavasitə asılıdır. Bununla da əlaqədar olaraq, polisin inzibati fəaliyyətinin məzmun və funksiyalarının daha da dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Digər tərəfdən isə "Polis haqqında" Azərbaycan Respublikası Qanunun 3-cü maddəsinin 2-ci hissəsinə əsasən müəyyən edilmiş polisin əsas vəzifələrinin və 13-cü maddəsinə əsasən müəyyən edilmiş polis əməkdaşının ümumi vəzifələrinin yerinə yetirilməsində də polisin inzibati fəaliyyətinin rolu böyükdür.

"Polis haqqında" Qanunun 14-cü maddəsinə əsasən müəyyən edilmiş "ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri" və 16-cı maddəsinə əsasən isə müəyyən edilmiş "yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri" isə bir qayda olaraq, bilavasitə polisin inzibati fəaliyyəti vasitəsi ilə yerinə yetirilir.

Polisin qarşısında duran əsas vəzifələrin və polisin fəaliyyətinin əsas istiqamətlərinin hər biri sahəsində polis əməkdaşının qarşısıda duran vəzifələrin məzmunca müxtəlifliyini, xüsusiyyətlərini nəzərə alaraq, onların daha da səmərəli və peşəkarcasına yerinə yetirilməsini təmin etmək məqsədi ilə polis öz gündəlik fəaliyyətini aşağıdakı üç təşkilati-hüquqi formada həyata keçirir:

- inzibati fəaliyyət;
- əməliyyat-axtarış fəaliyyəti;
- cinayət-prosessual fəaliyyəti.

Polisin fəaliyyətinin yuxarıda göstərilən təşkilati-hüquqi fəaliyyət formaları içərisində inzibati fəaliyyət polis orqanları tərəfindən həll edilən vəzifələrin həcminə və müxtəlifliyinə görə xüsusi yer tutur. Digər tərəfdən isə polisin bir çox aparat və xidmətlərinin fəaliyyəti öz mahiyyətlərinə görə inzibati fəaliyyət xarakteri daşıyır və polis orqanlarının şəxsi heyətinin böyük hissəsi bilavasitə, yerdə qalanları isə dolayı yolla gündəlik olaraq bu fəaliyyət forması ilə məşğul olur.

Polisin qarşısında duran vəzifələrin həcmindən və onların məzmunca müxtəlifliyindən asılı olaraq, bu vəzifələrin yerinə yetirilməsində vətəndaşların, ictimaiyyətin iştirakının daha da genişləndirilməsində polis orqanlarının fəaliyyətinin təşkilati-hüquqi formaları içərisində daha geniş istifadə olunanı inzibati fəaliyyət formasıdır. Onun köməkliyi ilə polisin qarşısında duran vəzifələrin yerinə yetirilməsində ictimaiyyətin iştirakının forma və üsulları müəyyən edilir, cinayətkarlığa və digər hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsində ictimaiyyətin rolu daha da yüksəldilir.

Məsələn: 2009-cu il tarixində «Polis haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə polis orqanlarının yanında İctimai Şuraların yaradılması haqqında əlavələr edilmişdir. Bundan əlavə, DİN-in 25.06.2009-cu il tarixli 356 saylı əmri ilə təsdiq edilmiş «İnzibati sahə haqqında» Əsasnamə ilə polis orqanının inzibati sahələrində İctimai Şuralar yaradılmışdır. DİN-in 357 saylı «Hüquq qaydasının təmini üzrə İctimai Şura haqqında» Əsasnamə ilə bu Şuranın yaradılma qaydası, məqsəd və vəzifələri müəyyən edilmişdirö

Polis orqanlarının təşkilatdaxili və təşkilatdankənar fəaliyyətinin təşkilində və həyata keçirilməsində də polisin inzibati fəaliyyət formasının rolu böyükdür. Polis orqanlarının təşkilatdaxili və təşkilatdankənar fəaliyyətlərinin təşkilinin effektivliyindən polis orqanlarının fəaliyyətinin yekun nəticələri bilavasitə asılıdır. Ona görə də polisin inzibati fəaliyyət forması mahiyyətinə görə mühüm əhəmiyyət kəsb edir.

Polisin bu fəaliyyəti özündə əsasən ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, icazə sisteminin həyata keçirilməsi, inzibati nəzarətin həyata keçirilməsi, pasport sisteminin həyata keçirilməsi, mülkiyyətin mühafizəsi, polis sahə inspektorlarının fəaliyyəti, polisin post-patrul xidməti, yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikası xidməti polisin xüsusi müəssisələrinin fəaliyyət göstərməsini və s. kimi fəaliyyətləri birləşdirir.

Polisin inzibati fəaliyyəti – əsasən ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyin təmin edilməsi sahələrində yaranan ictimai münasibətləri tənzimləmək və onların mühafiizəsini təmin etmək məqsədi ilə həyata keçirilir. Bundan əlavə, polisin inzibati fəaliyyəti ictimai həyatın müxtəlif sahələrini və müxtəlif ictimai münasibətləri də əhatə edir. Bu münasibətlər əhalinin ictimai yerlərdə olması, nəqliyyat vasitələrindən istifadə etmələri, Respublika ərazisində hərəkət etmələri, Respublikadan getmələri və Respublikaya gəlmələri, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Respublika ərazisində olmaları və tranzitlə keçmələri, mülkiyyətin mühafizəsi ilə əlaqədar yaranır. Bundan əlavə, bu kimi münasibətlər mülki silahların, partlayıcı və zəhərləyici maddələrin əldə edilməsi, istifadə edilməsi və saxlanılması, mülki silahların təmiri və istehsalı, poliqraf və digər başqa müəssisələrin fəaliyyət göstərmələri ilə əlaqədar də yaranır.

Polisin inzibati fəaliyyətinin təyinatı – göstərilən münasibətlərin düzgün təşkil edilməsindən və onların inkişaf etdirilməsindən, bu münasibətlərə tənzimləyici təsirin göstərilməsindən və onların mühafizəsinin təcrübi cəhətdən həyata keçirilməsindən ibarətdir. Bu məqsədlə də Azərbaycan Respublikasının

qanunvericilik orqanı olan Milli Məclis tərəfindən yuxarıda adları çəkilən ictimai münasibətləri tənzimləyən bir sıra müvafiq normativ-hüquqi aktlar qəbul edilmişdir. Məsələn: ictimai yerlərdə əhalinin davranışlarını tənzimləyən; Respublikada pasport və icazə sistemini və s. tənzimləyən normativ-hüquqi aktlar.

Polis əməkdaşları ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində qanunvericiliklə müəyyən edilmiş hüquq normalarına vətəndaşlar və vəzifəli şəxslər tərəfindən riayət olunmasına inzibati nəzarəti həyata keçirir, ictimai yerlərdə hüquqpozmalarının xəbərdar edilməsi və onların qarşısının alınması sahəsində böyük işlər görür, cəmiyyətin, dövlətin və vətəndaşların qanuni mənafelərini hüquqazidd qəsdlərdən qoruyur və s.

Polisin inzibati fəaliyyəti – polisin daxili işlər sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlətin vəzifə və funksiyalarının bilavasitə, gündəlik və təcrübi cəhətdən həyata keçirilməsindən ibarət olan məqsədyönlü, təşkiledici, icraedici-sərəncamverici və qanunqüvvəli təşkilati-hüquqi fəaliyyət formasıdır. Polisin bu fəaliyyəti bilavasitə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə xidmət edir.

İctimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə istiqamətləndirilmiş bu fəaliyyətin məzmununu – birinci növbədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polisin üzərinə düşən vəzifələrin praktiki olaraq həll edilməsinin təşkili prosesində polis orqanının daxilində; ikinci növbədə isə dövlət orqanlarının və ictimaiyyətin qüvvə və vasitələri ilə gündəlik bilavasitə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi zamanı yaranan və inkişaf edən inzibati-hüquqi münasibətlər təşkil edir.

Birinci halda – söhbət ştatların müəyyən edilməsindən, kadrların seçilməsi, yerləşdirilməsi və öyrədilməsindən, ictimai qaydanın qorunması və ictimai təlükəsizliyin təmin edilməsi üzrə qərarların hazırlanması və qəbul edilməsindən, qəbul edilmiş qərarların praktiki olaraq yerinə yetirilməsinin təşkilindən, nəzarət funksiyalarının həyata keçirilməsindən və s. təşkilatdaxili münasibətlərdən (polis orqanlarının təşkilatdaxili fəaliyyətindən) gedir.

İkinci halda isə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı olan münasibətlər nəzərdə tutulur. Belə münasibətlərə aşağıdakı kimi münasibətləri misal olaraq göstərmək olar. Məsələn: vətəndaşlar tərəfindən ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyət əleyhinə olan inzibati xətaların törədilməsi ilə bağlı yaranan münasibətləri; silah-təmir emalatxanaların açılmasına icazənin alınması üçün idarə, müəssisə və təşkilatların polis orqanlarına müraciətləri ilə bağlı yaranan münasibətəri; şəxsiyyət vəsiqələrinin alınması və ya dəyişdirilməsi ilə əlaqədar vətəndaşların polis orqanlarına müraciətləri ilə bağlı yaranan münasibətləri və s.

Polisin iştirakı ilə yaranan belə münasibətlərin subyektləri polisə xidməti münasibətdə tabe olmayan vətəndaşlar, idarə, müəssisə, təşkilatlar və onların vəzifəli şəxsləri ola bilərlər. Muzakirə edilən bu münasibətlər polisin təşkilatdankənar (xarici) inzibati fəaliyyətlərinə xas olan münasibətlərdir. Bu münasibətlər dövlətin daxili işlər sahəsində qanunvericiliyin tələblərinə vətəndaşlar və vəzifəli şəxslər tərəfindən riayət olunmasının bilavasitə təmin edilməsində,

hüquqpozmalarının və digər qanunazidd əməllərin xəbərdar edilməsi və qarşısının alınmasında, hüquqpozan şəxsin məsuliyyətə cəlb edilməsinə istiqamətləndirilmiş tədbirlərin həyata keçirilməsində ifadə olunurlar.

Beləliklə, polisin təşkilatdaxili və təşkilatdankənar (xarici) inzibati fəaliyyəti bir-biri ilə qarşılıqlı əlaqədədirlər və onların əsas vəzifələri vətəndaşların hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin həyata keçirilməsi, əməyi və istirahətliyi, dövlət və qeyri-hökumət təşkilatlarının normal fəaliyyətləri üçün daha əlverişli şəraitin yaradılmasından ibarətdir.

Polisin inzibati fəaliyyətinin mahiyyəti – onun vasitəsi ilə polisin qarşısında duran vəzifə və funksiyaların qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilməsinin təmin edilməsindən ibarətdir. Digər tərəfdən isə dövlətin daxili işlər sahəsində polis orqanlarının qarşısında duran vəzifələrin həcmindən və onların məzmunca müxtəlifliyindən, yəni onların vəzifələrinin xüsusiyyətlərindən asılı olaraq, polis orqanlarının vəzifə və funksiyalarının böyük həcminin inzibati fəaliyyət forması vasitəsi ilə həyata keçirildiyi üçün bu fəaliyyət forması praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Polisin inzibati fəaliyyətinin xarakterik əlamətləri aşağıdakılardır:

- dövlət-hakimiyyət xarakterliyi;
- təşkilati xarakterliyi;
- inzibati fəaliyyətin həyata keçirilməsi prosesində onun icra hakimiyyətinin müvafiq orqanlarına tabeçiliyi və nəzarət altında olması xarakterliyi;
- mərkəzləşdirilmiş rəhbərlik elementlərinin operativ (bilavasitə) idarəetmə ilə əlaqələndirilməsi;
- qanunqüvvəli xarakterliyi;
- profilaktika istiqamətli xarakterliyi.

Polisin inzibati fəaliyyətinin dövlət hakimiyyət xarakterliyi –onların üzərinə qoyulmuş inzibati-hüquqi səlahiyyətlərin bu orqanlar tərəfindən dövlətin adından qanunla ciddi müəyyən edilmiş səlahiyyətləri çərçivəsində həyata keçirilməsində öz əksini tapır. Polis orqanlarının əməkdaşları inzibati funksiyaları yerinə yetirərkən icrası məcburi olan göstərişlər vermək, zəruri hallarda məcburetmə təsir tədbirlərini tətbiq etmək hüququna malik olan idarəetmə subyekti kimi (hakimiyyət nümayəndəsi kimi) çıxış edirlər. Buna görə idarəetmə obyektləri ilə münasibətdə polis orqanlarının icraedici fəaliyyətləri eyni zamanda sərəncamverici fəaliyyətdən də ibarət olur. Məhz, polis orqanlarının bu sərəncamverici səlahiyyətlərindən də inzibati fəaliyyətin dövlət-hakimiyyət xarakterliyinə xas olması öz ifadəsini tapır.

Polisin inzibati fəaliyyətinin təşkilati xarakterə malik olması. Polisin inzibati fəaliyyəti – öz məzmununa görə bilavasitə təşkiletmə fəaliyyətidir. İnzibati fəaliyyətin təşkiletmə mahiyyəti öz ifadəsini bu fəaliyyətin həyata keçirilməsi prosesində daxili işlər, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahələrindəki vəzifələrin həll edilməsi üzrə əhalinin birgə müəyyən məqsədə yönəldilmiş fəaliyyətlərinin təşkil edilməsində tapır. Bu məqsədlərlə də daxili işlərin idarə edilməsi ilə daxili işlər orqanları sisteminin fəaliyyət göstərməsi ilə bağlı məsələlər həll edilir, daxili işlər sahəsində ictimai münasibətlərin

iştirakçılarının fəaliyyətləri əlaqələndirilir, bu sahədə görülən birgə iş təşkil edilir, onların yerinə yetirilməsi üzrə yoxlama və nəzarət həyata keçirilir.

Polisin inzibati fəaliyyətinin icra hakimiyyətinin müvafiq orqanlarına tabeçiliyi və nəzarət altında olması xarakterliyi – ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin, hüquqpozmalarla mübarizənin təşkilində iştirak edən orqanların rolunu yüksəldir, polisin, dövlət yol polisi xidmətinin və digər orqan və xidmətlərin qarşılarına qoyulmuş vəzifələrin yerinə yetirilməsi üzrə onların məsuliyyətlərini gücləndirir, onların işlərinə nəzarətin effektivliyini təmin edir, müxtəlif hüquq-mühafizə orqanlarının və ictmai qurumların fəaliyyətlərinin əlaqələndirilməsinə kömək edir.

Polis orqanlarının inzibati fəaliyyətinin bu əlaməti Azərbaycan Respublikasının müxtəlif normativ-hüquqi aktlarında da öz əksini tapmışdır. Məsələn: "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (28 oktyabr 1999-cu il) 12-ci maddəsinə əsasən, polisin fəaliyyətinə nəzarətin həyata keçirilməsi müəyyən edilmişdir. Bu Qanunun 12-ci maddəsinin 1-ci hissəsinə əsasən "Polis haqqında" Qanunun müddəalarının icrasına idarədaxili və idarədənkənar nəzarət həyata keçirilir.

"Polis haqqında" Qanunun 12-ci maddəsinin 2-ci hissəsinə əsasən isə polisin fəaliyyətnə idarədaxili nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, idarədənkənar nəzarəti isə Azərbaycan Respublikasının Prezidenti həyata keçirir. Polis orqanlarında qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş səlahiyətləri daxilində məhkəmələr və prokurorluq orqanları həyata keçirirlər. Bu orqanların səlahiyyətləri isə "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il və "Prokurorluq haqqında" 7 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmişdir.

Polis orqanlarının inzibati fəaliyyətinin icra hakimiyyətinin müvafiq orqanlarına tabeçiliyi və nəzarət altında olması xarakterliyi özünü digər formada da ifadə göstərir. Məsələn: Dövlətin nümayəndəli və icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları öz ərazilərində hüquq qaydasının vəziyyətinə görə məsuliyyət daşıyırlar. Bu orqanlar onların tabeçiliyində olan daxili işlər orqanlarının fəaliyyətinə ən fəal şəkildə təsir göstərməli və inzibati fəaliyyətin effektivliyinin yüksəldilməsi üçün şərait yaratmalıdırlar.

Polisin inzibati fəaliyyəti mərkəzləşdirilmiş rəhbərlik elementlərinin operativ (bilavasitə) idarəetmə ilə əlaqələndirilməsi ilə də xarakterizə olunur. Mərkəzləşdirilmiş rəhbərlik fəaliyyətin əsas istiqamətlərinin müəyyən edilməsində, ümumi qaydaların və normativlərin müəyyən edilməsi ilə və s. ifadə olunur. Operativ (bilavasitə) idarəetmə üçün isə idarəetmənin subyekti və obyekti arasında düzünə əlaqələrin mövud olması daha xarakterikdir.

Polisin inzibati fəaliyyəti – qanunqüvvəli xaraktera malikdir. Buəlamət öz əksini polis orqanlarının inzibati fəaliyyətinin əsas istiqamətlərinin və məqsədlərinə nail olmanın əsas vasitələrinin qanunlara müəyyən edilməsində tapır. Polisin inzibati fəaliyyətinin bu əlaməti çox vacibdir, çünki onun sahəsi son dərəcədə genişdir. O, adətən vətəndaşlarla, idarə, müəssisə, təşkilatlarla və vəzifəli

şəxslərlə münasibətdə həyata keçirilir. Çünki, qanundan istənilən kənara çıxma vətəndaşların, idarə, müəssisə və təşkilatların hüquqlarına və qanuni mənafelərinə əhəmiyyətli zərər vura bilər.

Polisin inzibati fəaliyyətinin qanunqüvvəli olması mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu fəaliyyət prosesində hər şeydən əvvəl qanunun göstərişləri icra olunur. Qanunun normaları polis orqanları tərəfindən bir qayda olaraq, konkret həyati vəziyyətlərlə və şəraitlərlə bağlı olaraq tətbiq edilir. Bu zaman polis orqanları (onların vəzifəli şəxsləri) qanunun bilavasitə göstərişlərini yerinə yetirə bilər (deyək ki, əməkdaşın mükafatlandırılması haqqında əmr vermək), və yaxud da məzmunu qanunun birbaşa göstərişlərinin yerinə yetirilməsindən ibarət olan hərəkətlər edə bilərlər (məsələn: hüquqpozmasının qarşısının alınması).

İnzibati fəaliyyətin həyata keçirilməsi prosesində səlahiyyətli polis orqanları idarənin (təşkilatın) normativ-hüquqi aktlarını işləyib hazırlayır və dərc edirlər. Onlarda olan normalar və davranış qaydaları qanunqüvvəli xarakter daşıyır. Çünki, bu normativ-hüquqi aktlar qanunun tələblərinin icra olunması, onların detallaşdırılması və konkretləşdirilməsi məqsədi ilə qəbul edilir və tətbiq edilir. Məsələn: «Vətəndaşların müraciətlərinə baxılması haqqında» Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə DİN-in 05.01.2009-cu il tarixli 1 saylı əmri ilə təsdiq edilmiş «Daxili işlər orqanlarında vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Təlimat qəbul edilmişdir.

Polis orqanları (vəzifəli şəxslər) qanunvericiliyə müvafiq olaraq, hüquqpozan şəxslərin hüquqi məsuliyyətə cəlb edilməsi, onlara qarşı inzibati və cinayət-prosessual təsirlərin tətbiq edilməsi üzrə fəaliyyəti müstəqil həyata keçirmək hüququna malikdirlər. Məlum məsələdir ki, bu fəaliyyət qanunun tələblərinə ciddi müvafiq olaraq həyata keçirilməlidir. Məsələn: Bu hüquqlar «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu maddə 18-20; 21, 24, 26-cı maddələri və digər normativ-hüquqi aktlarla müəyyən edilmişdir.

Polis orqanlarının inzibati fəaliyyətinin profilaktik istiqamətliliyi – hər şeydən əvvəl inzibati xarakterli bütün aparatların, xidmətlərin, qüvvələrin və vasitələrin işinin ictimai qayda və ictimai təhlükəsizlik sahələrində sivil münasibətlərin inkişafı, daxili işlərin bu və ya digər sahələrində müəyyən edilmiş qanunvericiliyə ciddi riayət olunması və onun pozulmasının xəbərdar edilməsi üçün maksimal şərait yaradılmasınıntəşkil edilməsi ilə təmin edilir. Bu işdə müvəffəqiyyətə yalnız, ictimai qayda, ictimai təhlükəsizlik vəziyyətinin, hüquqpozmalarının törədilməsinə köməklik göstərən səbəb və şəraitin, qüvvə və vasitələrin təsirli əsaslandırılmış yerləşdirilməsinin dərindən və hərtərəfli öyrənilməsi, həmçinin də hər bir işçinin yüksək peşəkarlıq xidməti ilə nail olmaq olar.

Polisin inzibati fəaliyyətinin məzmunu – onun müəyyən edilmiş formalarda və müvafiq metodlarla həyata keçirilən funksiyalarının realizəsindən ibarətdir.

Polisin inzibati fəaliyyəti onun qarşısında duran vəzifələrin məzmun və xüsusiyyətlərindən asılı olaraq,bir sıra funksiyalara bölünməsi qəbul edilmişdir. Polisin inzibati fəaliyyətinin funksiyaları bu fəaliyyətin müəyyən istiqamətləri kimi başa düşülür. Çünki, hər bir funksiya məzmun və mahiyyət etibarı ilə hərəkətin

(fəaliyyətin) xüsusiləşməsi və eyniliyi, müəyyən məqsədə yönəldilməsi ilə xarakterizə olunur. Nəticə etibarı ilə inzibati fəaliyyətin funksiyaları obyektiv amillərlə, təcrübənin (praktikanın) tələbləri ilə şərtləndirilir və onlardan irəli gələrək müəyyən edilir. Hər bir funksiyanın məzmunu da inzibati fəaliyyətin obyektinin səciyyəviliyi ilə müəyyən edilir.

Yuxarıda göstərilənlərlə yanaşı inzibati fəaliyyətin funksiyalarının sayı və xarakteri həm də subyektiv amillərdən də asılıdır, yəni dövlət tərəfindən polisin qarşısına qoyulan məqsəd və vəzifələrdən də asılıdır. Bununla yanaşı olaraq, bir çox funksiyaların məzmunu (strukturu) istənilən vəziyyətdə daimi olaraq qalır. *Beləliklə, polisin inzibati fəaliyyətinin funksiyalarının aşağıdakı növlərə bölünməsi qəbul edilmişdir:*

- ümumi funksiyalar;
- xüsusi (əsas) funksiyalar;
- təminedici funksiyalar.

Polisin inzibati fəaliyyətinin ümumi funksiyalarına aşağıdakı funksiyalar aiddir:

- proqnozlaşdırma;
- planlaşdırma;
- təşkil etmə;
- nizama salma;
- uçot;
- yoxlama.

İndi isə bu funksiyaların hər birisinin məzmunu ilə ayrı-ayrılıqda tanış olaq.

Proqnozlaşdırma – alınmış məlumatlar və onların təhlili, həmçinin də elmi nailiyyətlər əsasında hər hansı bir prosesin inkişafında dəyişikliklərin elmi cəhətdən qabaqcadan görülməsi kimi başa düşülür.

Polisin inzibati fəaliyyətində proqnozlaşdırma - polisin inzibati fəaliyyətinin obyekti olan ictimai qayda və ictimai təhükəsizlik sahələrində və daxili işlərin digər sahələrində baş verən bu və ya digər proseslərin inkişafının istiqamət və məqsədlərinin müəyyən edilməsindən, həmçinin də qarşıya qoyulmuş məqsədə nail olmaq üçün lazım olan proqramların işlənib hazırlanmasından ibarətdir.

Polisin inzibati fəaliyyətində planlaşdırma – bu fəaliyyətin qarşısında duran vəzifələrinin yerinə yetirilməsi və funsiyalarının həyata keçirilməsi üçün polisin inzibati fəaliyyətini həyata keçirən orqanların, aparatların, xidmətlərin, bölmələrin, nizami hissələrin və bu orqanların əməkdaşlarının gündəlik fəaliyyətlərinin planlaşdırılmasından ibarətdir.

Planlaşdırma – daxili işlər sahəsində idarəetmə prosesinin ümumi funksiyalarından biri kimi, qarşıdakı fəaliyyət dövrünə sosial sistemlərin məqsəd və vəzifələrinin, onlara nail olma üsul və vasitələrin, eləcə də onların həll edilməsi ardıcıllığının və yerinə yetirilməsi müddətlərinin müəyyən edilməsi üzrə idarəetmə subyektinin fəliyyəti başa düşülür.

Planlaşdırmanın əhəmiyyəti polis orqanlarının gündəlik işinə məqsədyönlü və konkret xarakterin verilməsinə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin, cinayətkarlıqla və digər xətalarla mübarizənin

daha aktual problemlərinin həllində əsas gücün bir yerə cəmləşdirilməsinə imkan və şəraitin yaradılmasına, eləcə də qarşıya qoyulmuş vəzifələrin vaxtında həll edilməsinə köməklik göstərməsindən ibarətdir.

Azərbaycan Respublikası DİN-in 17 iyul 2009-cu il tarixli 390 №-li əmri ilə təsdiq edilmiş "Şəhər, rayon, nəqliyyatda polis orqanlarının işinin təşkili haqqında" Təlimata və DİN-in 14.05.2002-ci il tarixli 186/XİÜ nömrəli əmri ilə təsdiq edilmiş «DİO-da analitik işin və planlaşdırmanın təşkili qaydalarının təsdiq edilməsi barədə» Təlimata müvafiq olaraq, planlaşdırma aylıq, rüblük, yarımillik və illik ola bilər.

*Polisin inzibati fəaliyyətnin təşkil etmə funksiyas*ı – inzibati fəaliyətin idarəedən və idarəolunan sisteminin təşkil edilməsindən, müafiq quruluşun təşkil edilməsi vasitəsi ilə bu sistemlərin nizama salınmalarının təmin edilməsindən və onda baş verən proseslərin tənzimlənməsindən ibarətdir.

Polisin inzibati fəaliyyətinin təşkil etmə funksiyası – polisin inzibati fəaliyyətini həyata keçirən xidmətlərin, orqanların, bölmələrin, qrupların və digər subyektlərin təşkil edilməsini, yenidən təşkil edilməsini, ləğv edilməsini, onların hüquq və vəzifələrinin, qarşılıqlı əlaqə qaydalarının müəyyən edilməsini, kadrların seçilməsi və yerləşdirilməsini və s. ifadə edir.

Polisin inzibati fəaliyyətinin nizamasalma funksiyası – təşkil etmə funksiyası ilə sıx əlaqədardır. Nizamasalma funksiyasının təyinatı inzibati fəaliyyətin subyektləri tərəfindən bu fəaliyyətin səmərəli həyata keçirilməsi üçün zəruri olan onların nizamasalınmış vəziyyətini qorumaqdan ibarətdir. Nizamasalma funksiyası vasitəsi ilə inzibati fəaliyyəti həyata keçirən xidmətlərin, bölmələrin fəaliyyətlərinə, polis əməkdaşlarının davranışlarına bilavasitə rəhbərlik həyata keçirilir. Nizamasalma funksiyası olmadan tapşırılmış proqrama müvafiq olaraq, inzibati fəaliyyətin müəyyən məqsədə yönəldilmiş formada həyata keçirilməsi təsəvvür edilməzdir.

Polisin inzibati fəaliyyətinin uçot funksiyası – məlumatların toplanılmasının, ötürülməsinin, saxlanılmasının və yenidən işlənməsinin təmin edilməsindən, yəni inzibati fəaliyyətin subyektlərinin fəaliyyət göstərmələri, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsi, vəsait mənbələrinin mövcudluğu və istifadə edilməsi, texniki vasitələrin vəziyyəti haqqında, həmçinin də inzibati fəaliyyətin təsir göstərdiyi obyektlərin vəziyyəti haqqında məlumatların sayca ölçülməsindən, qeydiyyata alınmasından və qruplaşdırılmasından ibarətdir.

Uçot-yoxlama funksiyası üçün əsaslı zəmin yaradır. Polisin inzibati fəaliyyətinin ümumi funksiyası kimi yoxlama funksiyasının mahiyyəti fəaliyyət obyektinin real vəziyyətinin verilmiş (tapşırılmış) proqrama uyğun omasının və ya uyğun olmamasının müəyyən edilməsindən ibarətdir. Yoxlama yerinə yerinə yetirilən hərəkətlərin (fəaliyyətin) qarşıya qoyulmuş məqsəd və vəzifələrə nə dərəcədə uyğun olmasının aşkar edilməsinə kömək edir.

Polisin inzibati fəaliyyətinin xüsusi (əsas) funksiyaları

Polisin inzibati fəaliyyətinin xüsusi (əsas) funksiyaları – bu fəaliyyətin qarşısında duran məqsəd və vəzifələrinin bilavasitə yerinə yetirilməsinə xidmət edir.

Polisin xarici inzibati faəliyyətinin məzmununu inzibati fəaliyyətin xüsusi (əsas) funksiyalarının məcmusu təşkil edir.

Polisin inzibati fəaliyyətinin xüsusi (əsas) funksiyalarına aşağıdakı kimi funksiyalar aiddir:

- vətəndaşların şəxsi təhlükəsizliyinin və ictimai təhlükəsizliyin təmin edilməsi, şəxsiyyətin həyatının, şərəf və ləyaqətinin, onların hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin, cəmiyyət və dövlətin qanuni mənafelərinin cinayəkar və digər hüquqazidd qəsdlərdən qorunması;
- cinayətlərin və digər hüquqpozmalarının xəbərdar edilməsi cinayətlərin və digər hüquqpozmalarının törədilməsinə köməklik edən səbəb və şəraitin aşkar edilməsi, onların aradan qaldırılması üçün tədbirlərin görülməsi; hüquqpozma törədən şəxslərlə fərdi profilaktika işinin həyata keçirilməsi, vətəndaşların hüquqi cəhətdən maarifləndirilməsində iştirak etmək;
- küçələrdə, meydanlarda, nəqliyyatlarda və digər ictimai yerlərdə, o cümlədən ictimai-siyasi, mədəni, idman və digər kütləvi tədbirlərin keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təlükəsizliyin təmin edilməsi; fövqəladə vəziyyət elan olunmuş və xüsusi idarəetmə forması tətbiq edilmiş yerlərdə və yaşayış məntəqələrində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi;
- icazə sisteminin həyata keçirilməsi (odlu silahların və onların sursatlarının əldə edilməsinə, istifadəsinə və saxlanmasına, icazə sistemi təsiri altına düşən obyektlərin açlımasına və fəaliyyət göstərmələrinə icazənin verilməsi);
- vətəndaşlar tərəfindən yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmaları qaydalarına riayət etmələrinə nəzarətin həyata keçirilməsi;
- əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində olmaları və Azərbaycan Respublikası ərazisindən tranzitlə keçmələri qaydalarına riayət etmələrinə nəzarətin həyata keçirilməsi;
- yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi;
- müqavilə ilə mülkiyyətin mühafizəsi;
- əhaliyə sosial köməkliyin göstərilməsi; hüquqpozmalardan və bədbəxt hallardan xəsarət almış, köməksiz vəziyyətdə qalmış şəxslərə təcili köməkliklərin göstərilməsi barədə təbirlərin görülməsi; qəzaların, yanğınların, təbii fəlakətlərin və digər fövqəladə hadisələrin nəticələrinin ləğv edilməsi, əhalinin xilas edilməsi və onlara köməklik göstərilməsi, nəzarətsiz qalmış əmlakın mühafizəsi üzrə təcili tədbirlərin görülməsi; tapılmış və polisə təhvil verilmiş sənədlərin, əşyaların, qiymətli şeylərin və digər əmlakın saxlanılması və qaytarılması barədə tədbirlərin görülməsi;
- ictima qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi məsələləri üzrə səlahiyyətli dövlət hakimiyyəti orqanlarının aktlarının vətəndaşlar və vəzifəli şəxslər tərəfindən icra edilməsinə öz səlahiyyətləri çərçivəsində yoxlamanın və nəzarətin həyata keçirilməsi;
- inzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsi;

- səlahiyyətləri çərçivəsində inzibati tənbehlər haqqında qərarların icrasının həyata keçirilməsi və s.

Təminedici funksiyalar

Polisin inzibati fəaliyyətinin təminedici funksiyaları onun ümumi və xüsusi (əsas) funksiyalarının yerinə yetirilməsinə xidmət edir.

Polisin inzibati fəaliyyətinin təminedici funksiyalarına aşağıdakı kimi funksiyalar aiddir:

- kadr;
- maliyyə;
- təsərrüfat;
- kargüzarlıq;
- maddi-texniki;
- polisin inzibati fəaliyyətini təmin edən digər funksiyalar.

Polisin inzibati fəaliyyətinin ümumi, xüsusi (əsas) və təminedici funksiyaları bir-biri ilə qarşılıqlı əlaqədə və bir-birindən asılı vəziyyətdədirlər. Onların məcmusu polisin inzibati fəaliyyətinin məzmununu və fəaliyyət sahəsini (həcmini, məzmununu) təşkil edirlər.

Polisin inzibati fəaliyyəti üçün xarakterik xüsusiyyət onun başlıca olaraq polisin xarici fəaliyyəti ilə sıx bağlı olmasından ibarətdir. Bu fəaliyyət polisin gündəlik fəaliyyətində daha geniş və həcmli fəaliyyət sahəsi və istiqamətidir. Bununla əlaqədar olaraq, polis əməkdaşlarının böyük hissəsi inzibati funksiyaları həyata keçirirlər. Buna görə də inzibati fəaliyyətin subyektləri əsasən xüsusi xidmətlərdən (ictimai qaydanın qorunmasını və ictimai təhlükəsizliyi təmin edən xidmətlərdən, yəni PPX-dən, YPX-dən, polis sahə inspektorları xidmətindən, icazə və pasport xidmətindən, növbətçi hissə xidmətindən və s.), onların bölmələrindən, hissələrindən, polis əməkdaşlarından (postaçılardan, patrullardan və s.) ibarətdir.

Polisin inzibati fəaliyyəti inzibati-hüquqi normalarla nizama salınır. Bu fəaliyyətin həyata keçirilməsi prosesində onun subyektləri vətəndaşlarla, xidməti münasibətlərinə görə polisə tabe olmayan dövlət orqanları, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlarla) idarələr, müəssisələr, təşkilatlar, dövlət qulluqçuları, qeyri-hökumət təşkilatlarının qulluqçuları ilə (nümayəndələri), əcnəbilərlə və vətəndaşlığı olmayan şəxslərlə inzibati-hüquqi münasibətlərə girirlər.

2.3. Polisin inzibati fəaliyyətinin növləri (istiqamətləri) və onların hüquqi xarakteristikası

"Polis haqqında" Qanunun 3-cü maddəsinin 2-ci hissəsinə əsasən polisin qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsində polisin fəaliyyətinin

təşkilati-hüquqi fəaliyyət formaları içərisində daha geniş istifadə olunanı inzibati fəaliyyətdir.

Polisin inzibati fəaliyyətinin məzmunu polis aparatlarının, xidmətlərinin, bölmələrinin, nizami hissələrinin və polisin inzibati fəaliyyətini həyata keçirən polis əməkdaşlarının ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə üzrə funksiyaların inzibati-hüquqi vasitələrlə bilavasitə və təcrübi cəhətdən həyata keçirilməsindən ibarətdir.

Polisin inzibati fəaliyyəti inzibati-hüquqi normalar vasitəsi ilə nizamlanır. Polisin inzibati fəaliyyətinin həyata keçirilməsi prosesində polis əməkdaşları vətəndaşlarla, vəzifəli şəxslərlə, idarə, müəssisə və təşkilatlarla, eləcə də qeyri-hökumət təşkilatları ilə müxtəlif xarakterli inzibati-hüquqi münasibətlərə girir.

Polisin ayrı-ayrı apparat və xidmətlərinin inzibati fəaliyyətini daha ətraflı xarakterizə etmək məqsədilə onların qarşısında duran ümumi vəzifələrilə yanaşı, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin müəyyən sahəsini əhatə edən özlərinin konkret vəzifələrinə malik olmalarını da nəzərə almaq lazımdır. Məsələn: polisin əsas vəzifələri konkret normativ-hüquqi aktla, yəni "Polis haqqında" Qanunda müəyyən edilmişdir.

Polisin əsas vəzifələri isə xüsusi formalarda həyata keçirilir. Məsələn: küçələrdə, parklarda və s. ictimai yerlərdə bu vəzifələrin yerinə yetirilməsinə polisin post-patrul xidmətinin polis sahə inspektorları xidmçətinin, icazə xidmətinin, pasport xidmətinin, yol-patrul xidmətinin və s. xidmətlərin həyata keçirilməsi ilə nail olunur. Bu vəzifələrin yerinə yetirilməsi prosesində yaranan münasibətlər göstərilən xidmətlərin hər birisinin hüquqi vəziyyətini, onların vəzifə və hüquqlarını, fəaliyyətlərinin təşkilini müəyyən edən DİN-in müvafiq normativ-hüquqi aktları ilə tənzimlənir.

Beləliklə, polisin inzibati fəaliyyətinin bu və ya digər konkret istiqamətində yaranan ictimai münasibətlərin xüsusiyyətləri bir tərəfdən xüsusi normativ-hüquqi aktların mövcud olması, digər tərəfdən isə bu aktların real həyatda tətbiq edilməsi prosesində xüsusi hərəkət formalarının mövcud olması ilə şərtləndirilir.

İnzibati fəaliyyət sahəsində inzibati-hüquqi vasitələrlə vəzifələrin həmcins (oxşar) həll edilməsi əlavə olaraq yaranan ictimai münasibətlərin xarakteri ilə müəyyən edilən bir tipli (oxşar) hərəkətlərin yerinə yetirilməsi vasitəsi ilə həyata keçirilir. Belə növ hərəkətlərin məcmusu inzibati fəaliyyətin növünü (istiqamətini) təşkil edir.

Polisin inzibati fəaliyyətinin qarşısında duran vəzifələrin məzmun və xüsusiyyətlərindən asılı olaraq, polisin inzibati fəaliyyətinin aşağıdakı kimi növləri mövcuddur:

- polisin post-patrul xidməti;
- yol –patrul xidməti;
- icazə sisteminin həyata keçirilməsi;
- pasport sisteminin həyata keçirilməsi;
- polis sahə inspektorları xidməti;
- mülkiyyətin müqavilə ilə mühafizəsi;

- təbiətin və ətraf mühitin mühafizəsində inzibati fəaliyyət xarakterli aparat və xidmətlərin işirak etməsi;

- hüquqpozmaların profilaktikasının təşkili və s.

Polisin inzibati fəaliyyətinin yuxarıda göstərilən növləri içərisində polisin post-patrul xidməti növü cinayətkarlığa və digər hüquqpozmalarına qarşı mübarizədə xüsusi yer tutur.

Polisin post-patrul xidməti küçələrdə, meydanlarda, parklarda, avtomobil yollarında, vağzallarda, limanlarda, aeroportlarda və digər ictimai yerlərdə, eləcə də müxtəlif kütləvi tədbirlər zamanı ictimai təhlükəsizliyin və cinayətkarlığa qarşı mübarizə işinin təmin edilməsinin əsas vasitəsidir.

Polisin post-patrul xidməti şəhərlərdə, yaşayış məntəqələrində, yollarda, nəqliyyatda təşkil olunur və xüsusi təyin edilmiş naryadlar vasitəsilə həyata keçirilir. Polisin post-patrul xidmətinin vəzifələri, xidmətin təşkil olunma və xidmətin aparılma qaydaları, habelə xidmətin idarə olunması ilə bağlı vəzifəli şəxslərin, naryadların vəzifə və funksiyaları Azərbaycan Respublikası DİN-in 30.05.2001-ci il tarixli 212 saylı əmri ilə təsdiq edilmiş "Polisin post-patrul xidməti haqqında Nizamnaməsi" ilə müəyyən edilmişdir.

Polisin post-patrul xidməti gündəlik fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu, DİN-in 30.05.2001-ci il tarixli 212 №-li əmri ilə təsdiq edilmiş "Polisin post-patrul xidməti Nizamnaməsini" rəhbər tutur.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi "Polis haqqında" Qanunun 3-cü maddəsinin 2-ci hissəsinə əsasən polisin əsas vəzifələrinin, 16-cı maddəsinə əsasən yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələrinin yerinə yetirilməsinə xidmət edir. Respublikada yol hərəkəti təhlükəsizliyi Azərbaycan Respublikasının Konsittusiyasına, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununa, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa və DİN-in 02.02.2001-ci il tarixli 50 saylı əmri ilə təsdiq edilmiş "Yol patrul xidməti haqqında Təlimata" müvafiq olaraq təşkil edilir.

İcazə sisteminin həyata keçirilməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əşyaların, o cümlədən odlu silahın, döyüş sursatlarının, zəhərli maddələrin və sair zərərli materialların əldə edilməsi, saxlanılması, gəzdirilməsi, daşınması üçün müəyyənləşdirilmiş qaydada icazənin verilməsinə, dövriyyəsinə nəzarətin edilməsinə, çoxaldıcı rəngli qurğuların (kseroksların) qeydiyyatının aparılmasına xidmət edir.

İcazə sisteminin təşkili və həyata keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası, "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanunu və DİN-in 15.05.2009-cu il tarixli 270 saylı əmri ilə təsdiq edilmiş "Daxili işlər orqanlarında icazə sisteminin təşkili qaydalarına dair Təlimat"ı ilə tənzimlənir.

Respublikada pasport sisteminin həyata keçirilməsi, Azərbaycan Respublikasının Konstitusiyasından, "Polis haqqında" 28.10.1999-cu il, "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" 17 iyul 1994-cü il, "Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqəsi haqqında" 17 iyul 1994-cü il,

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" 4 aprel 1996-cı il tarixli Azərbaycan Respublikasının Qanunlarından irəli gələn vəzifələrin yerinə yetirilməsinə xidmət edir.

Pasport sisteminin həyata keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası, "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu, pasport sistemini tənzimləyən yuxarıda göstərilən qanunlar və DİN-in 31 avqust 2001-ci il tarxli 351 saylı əmri ilə təsdiq edilmiş "DİN-in pasport-qeydiyyat idarəsi haqqında Əsasnaməsi" ilə tənzimlənir.

Polis sahə inspektorları xidməti daxili işlər orqanları sistemində qədim tarixə malik olan xidmətlərdən biridir. Onun formalaşması XX əsrin 20-ci illərindən başlamışdır. Polis sahə inspektorları xidmətinin təyinatı polis orqanları rəisinin fərdi idarəetmə aktı əsasında müəyyən olunmuş konkret inzibati ərazidə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsindən, cinayətkarlığa və digər hüquqpzmalarına qarşı mübarizənin, eləcə də inzibati ərazisində profilatika işinin aparılmasından ibarətdir.

Polis sahə inspektoru öz xidməti fəaliyyətində həm bir sıra təşkilati, həm də hüquqmühafizəedici tədbirlər həyata keçirir.

Polis sahə inspektorları xidməti Azərbaycan Respublikasının Konstitusiyası, "Polis haqqında" Qanunla, polis sahə inspektorlarının fəaliyyətini tənzimləyən digər Qanunlarla, polis sahə inspektorları xidmətini bilavasitə tənzimləyən DİN-in 25.06.2009-cu il tarixli 015 saylı əmri ilə təsdiq edilmiş "Polis sahə inspektorlarının işinin təşkilinə dair" Təlimatla, 25.06.2009-cu il tarixli 016 saylı əmri ilə təsdiq edilmiş "Polis sahə rəisinin işinin təşkilinə dair" Təlimatla, 25.06.2009-cu il tarixli 356 saylı əmri ilə təsdiq edilmiş "İnzibati sahə haqqında" Əsasnamə ilə 25.06.2009-cu il tarixli 357 saylı əmri ilə təsdiq edilmiş "Hüquq qaydasının təmini üzrə İctimai Şura haqqında" Əsasnamə ilə və 24.06.2009-cu il tarixli 358 saylı əmri ilə təsdiq edilmiş "Polis sahə məntəqəsi haqqında" Təlimatla, eləcə də polis sahə inspektorları xidmətini tənzimləyən DİN-in digər normativ-hüquqi aktları ilə tənzimlənir.

Polisin inzibati fəaliyyətinin yuxarıda göstərilən növlərinin hər birisinin hüquqi xarakteristikasını "DİO-nun inzibati fəaliyyəti" fənninin Xüsusi hissəsini öyrənərkən ayrı-ayrı mövzular vasitəsi ilə daha ətraflı öyrənəcəyik.

Mühazirəmizin ikinci sualının açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki, polisin inzibati fəaliyyəti onun digər fəaliyət formaları içərisində daha geniş istifadə olunan fəaliyyətdir. Ona görə də onun məzmunu və funksiyaları barədə hüquqi biliklərə yiyələnmək həm nəzəri, həm də təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Polisin qarşısında duran əsas vəzifələrin, "ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində" və "yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində" polis əməkdaşının vəzifələrinin yerinə yetirilməsində real vəziyyətdən asılı olaraq, polis əməkdaşları polisin inzibati fəaliyyətinin bu və ya digər formalarından geniş istifadə edirlər. Buna görə də polisin inzibati fəaliyyətinin formaları haqqında anlayışa və onun növləri barədə hüquqi biliklərə yiyələnmək həm nəzəri, həm də təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Polisin inzibati fəaliyyətinin növləri barədə geniş biliklərə yiyələnmək həm nəzəri, həm də təcrübi cəhətdən mühüməhəmiyyət kəsb edir. Çünki, polisin inzibati fəaliyyətinin ayrı-ayrı növləri müvafiq normativ-hüquqi aktlar vasitəsi ilə tənzimlənir və bu fəaliyyətin hər bir növü vasitəsi ilə polisin inzibati fəaliyyətinin qarşısında duran ayrı-ayrı vəzifələr yerinə yetirilir. Digər tərəfdən isə polisin inzibati fəaliyyətinin növlərinin hər birisinin təşkil edilməsi və həyata keçirilməsinin özünəməxsus xüsusiyyətləri mövcuddur. Ona görə də sizin tərəfinizdən polisin inzibati fəaliyyətinin növləri və onların hüquqi xarakteristikası barədə nəzəri bilikləri mənimsənilməsininn həm nəzəri, həm də təcrübi cəhətdən mühüməhəmiyyəti vardır.

Sual 3. 3. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin metodları və onların növləri.

3.1. . Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin metodlarının anlayışı, növləri, onların seçilməsi və istifadə olunması

Polisin inzibati fəaliyyəti - bu fəaliyyət subyektlərinin fəaliyyət obyektinə, insanların iradəsinə müəyyən məqsədə yönəldilmiş təsir etmə vasitələri ilə həyata keçirilir. İnzibati fəaliyyətin belə vasitələrlə həyata keçirilməsində bu fəaliyyətin obyektlərinin, insanların müəyyən məqsədə yönəlmiş hərəkətlərindən, davranışlarında ifadə olunan şüur nizamlayıcı amil kimi başa düşülür.

İnzibati fəaliyyətin subyektinin obyektin iradəsinə təsiri müxtəlif vasitələrlə, fəndlərlə, üsullarla həyata keçirilir. Bunlar da *inzibati fəaliyyətin metodları* adlanırlar. Deməli, *metod* – polisin inzibati fəaliyyətinin məqsədlərinin, vəzifə və funksiyalarının təcrübi cəhətdən həyata keçirilməsi üsuludur. Buradan belə nəticəyə gəlmək olar ki, polisin inzibati fəaliyyətinin həyata keçirilməsində istifadə olunan metodların məzmunu inzibati fəaliyyətin məqsədlərinə hansı üsullarla daha səmərəli nail olmaq olar sualına cavab verir.

Metodlar inzibati fəaliyyətin məqsədləri ilə dialektik vəhdət təşkil edir. Çünki, məqsəd metodların istifadə edilməsi xüsusiyyətlərini şərtləndirir, metodların seçilməsi isə məlum dərəcədə qarşıya qoyulmuş məqsədlərə nail olunmanın reallığını müəyyən edir. Digər tərəfdən isə metodlar inzibati fəaliyyətin məqsədlərinə necə nail olunmanı göstərir, məqsədlər isə inzibati fəaliyyətin keyfiyyət cəhətini müəyyən edir. Beləliklə, polisin inzibati fəaliyyətinin metodlarının təkmilləşdirilməsi ilə bu fəaliyyətin yaxşılaşdırılmasına nail olunur.

İnzibati fəaliyyətin metodlarının xarakteristikasının məzmunundan görünür ki, metodlara aşağıdakı əlamətlər xasdır:

- metodlar – inzibati fəaliyyətin subyekti ilə bu fəaliyyətin obyekti arasında mövcud olan əlaqəni ifadə edir;

- metodlar –idarəetmə subyektinin idarəetmə obyektinə idarəedici təsirinin həyata keçirilməsi vasitəsi, üsullarıdır. Daha dəqiq desək, metodlar polisin inzibati fəaliyyəti sahəsində baş verən proseslərin nizama salınması, təşkil edilməsi üsullardır. Belə ki, bu üsulların, fəndlərin vasitəsi ilə inzibati fəaliyyətin məqsədlərinə nail olunur;

- metodlar – polisin inzibati fəaliyyətində daha fəal və geniş formada tətbiq edilən təsir etmə elementlərdir;

- metodlar - alternativ xarakter daşıyırlar.

Məzmunundan və istiqamətindən asılı olmayaraq, inzibati fəaliyyətin metodlarına aşağıdakı əlamətlər xasdır:

- metodlar təsir etmə növü kimi başa düşülür, yəni icraedici-sərəncamverici göstərişlər (əmr, tələb, icazə və s.) kimi başa düşülən obyektivləşdirilmiş təşkilati formada ifadə olunur;

- metodlar təsir etmənin xarakterini müəyyən edir (yəni bilavasitə təsir etmə, həvəsləndirmə və ya məhdudlaşdırma şəraitinin yaradılması vasitəsi ilə dolayı təsir etmə);

- metodlar təsir etmənin müddətli xarakterli olmasını ifadə etdirir (qısa müddətli və uzun müddətli);

- metodlar təsir etmənin taktiki və strateji xarakterli olmasını ifadə etdirirlər və s.

Polisin inzibati fəaliyyətinin metodları, polisin fəaliyyətinin digər təşkilati-hüquqi formalarının (əməliyyat-axtarış, cinayət-prosessual) metodları kimi, polis əməkdaşlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə və onların işinin müntəzəmliyinin təmin etməyə və hər bir polis əməkdaşının yaradıcılıq təşəbbüsünün inkişafına kömək etməyə xidmət göstərir.

Metodların növləri

Polisin inzibati fəaliyyəti müxtəlif metodlarla həyata keçirilir. Metodların çoxluğunun və məzmunca müxtəlifliyinin mövcudluğu inzibati fəaliyyət vasitəsi ilə həll edilən məsələlərin, vəzifələrin çoxsaylı olması, onların məzmunca müxtəlifliyi və ümumilikdə inzibati fəaliyyətin həyata keçirilməsi prosesinin mürəkkəbliyi ilə şərtləndirilir. İnzibati fəaliyyətin həyata keçirilməsində istifadə olunan metodlar bir-birini tamamlayırlar, çünki onların hər biri inzibati fəaliyyətin ümumi məqsədlərinin həyata keçirilməsi üsulları kimi xarakterizə olunur.

İnzibati fəaliyyətin metodlarının vahidliyinin və onların qarşılıqlı əlaqələrinin düzgün başa düşülməsi, onların tövsif edilməsi, bu metodların mahiyyətinin və onların daha səmərəli tətbiq edilməsi şərtlərinin dərk edilməsi üçün zəruridir.

Polisin inzibati fəaliyyətinin əsas metodları inandırma və məcburetmədir. Çünki, polisin inzibati fəaliyyətinin istənilən funksiyalarının həyata keçirilməsində inandırma və məcburetmədən istifadə edilməsinin müəyyən variantlar nisbəti mövcuddur. Belə hallarda birinci növbədə, inandırma metodundan, sonra isə məcburetmə metodundan istifadə edilir. Metodlardan istifadə edilməsinin belə nisbəti dövlətin ümumi təbiətindən, onun məqsəd və vəzifələrinin insanların və vətəndaşların maraqlarına müvafiq olmasından, inandırmanın geniş tərbiyəvi rola malik olmasından irəli gəlir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsində "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyən edilmişdir". Dövlət də inandırma və məcburetmə metodlarından istifadə etməklə, məhz bu məqsədinə nail olmağa çalışır.

Bununla yanaşı, polisin inzibati fəaliyyətində inandırma və məcburetmə metodları müxtəlif variantlarda ifadə olunur. Bu da polisin inzabati fəaliyyətinin həyata keçirilməsi prosesində bu və ya digər vəziyyətdən asılı olaraq, metodların daha konkret növlərinin seçilməsi üçün əsas verir.

Beləliklə, polisin inzibati fəaliyyətinin həyata keçirilməsi prosesində istifadə olunan idarəetmə təsirinin xarakterinə görə metodları aşağıdakı növlərə bölmək olar:

- təşkilati metodlar (əlaqələndirmə, razılaşdırma, təlimatlandırma və s.);
- psixoloji metodlar (psixoloji məcburetmə, sübutetmə, nüfuz və s.);
- inzibati metodlar (inandırma və məcburetmə);
- iqtisadi metodlar.

İnzibati fəaliyyətin həyata keçirilməsi prosesində istifadə olunan bütün bu metodlar məzmunlarına, müəyyən məqsədə yönəldilmələrinə və təşkilati formalarına görə qüvvədə olan qanunvericiliyə müvafiq olmalıdırlar.

Polisin inzibati fəaliyyətinin həyata keçirilməsində yuxarıda göstərilən metodlardan inzibati metodlar daha çox mühüm əhəmiyyət kəsb edirlər. Aydındır ki, bu heç də digər metodların əhəmiyyətini azaltmır. Belə inzibati fəaliyyətin həyata keçirilməsinin nəticələri bütün təsir etmə metodlarının bacarıqla istifadə edilməsindən bilavasitə asılıdır.

İnzibati metodlar idarəolunanın iradəsinin idarəedənin iradəsinə tabe edilməsi ilə, yəni, "hakimiyyət - tabeçilik" xarakterinə malik olması ilə xarakterizə olunur. İnzibati metodlarda polisin inzibati fəaliyyətinin icraedici-sərəncamverici xarakterli təbiətə malik olması özünü daha aydın formada istifadə etdirir.

İnzibati metodlardan istifadə edilməsi bu fəaliyyətin subyektinin adı çəkilən fəaliyyətin obyektinə bir başa təsir etməyə, zəruri olan tabeçiliyə nail olmağa imkan yaradır. Lakin, bu idarəedilənlərə inzibati təsir etmə metodlarından istifadə edərkən, onların maraqlarının nəzərə alınmasını istisna etmir.

Təsir etmə üsullarına görə inzibati metodlar aşağıdakı növlərə bölünürlər:

- müəyyən hərəkətləri etməyi məcbur edən;
- müəyyən hərəkətləri etmək səlahiyyətləri verən;
- sosial faydalı hərəkətlərin edilməsini mükafatlandıran;
- bu və ya digər hərəkətlərin edilməsini qadağan edən.

İradəvi və məcburedici xarakterə malik olan inzibati metodların mahiyyətlərinə görə inzibati metodlara zidd olan valyuntarizmlə, özbaşınalıqla və inzibatçılıqla eyniləşdirilməsi yolverilməzdir.

Polisin inzibati fəaliyyətində metodların seçilməsi və istifadə edilməsi

İnzibati fəaliyyətin konkret metodlarının seçilməsi və onların təcrübi cəhətdən tətbiq edilməsi bir çox subyektiv və obyektiv xarakterli amillərlə şərtləndirilir.

Metodların istifadə edilməsində subyektiv amillər daha mühüm əhəmiyyət kəsb edir. Belə ki, kifayət qədər təcrübəli olmayan polis əməkdaşı tərəfindən metodların avtoritar, kor-koranə yanaşma ilə seçilməsi və tətbiq edilməsi mənfi nəticələrə və inzibati fəaliyyətin məqsədlərinin təhrif edilməsinə gətirib çıxara bilər. Bununla əlaqədar olaraq, fəaliyyət subyektinin yüksək peşəkarlığa, eləcə də bu və ya digər təsir etmə metodunun seçilməsinə görə məsuliyyət hissinə malik olması zəruridir.

Metodlar əsasən, inzibati fəaliyyətin real proseslərində istifadə edilirlər. Bununla əlaqədar olaraq, inzibati fəaliyətin həyata keçirilməsi prosesində metodların seçilməsi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır:

- inzibati fəaliyyət qarşısında duran mühüm vəzifələr;

- inzibati fəaliyyətin subyektinin və obyektinin xüsusiyyətləri və vəziyyəti;
- konkret həyati hadisələrin xarakteri və özünəməxsus xüsusiyyətləri;
- mövcud olan metodlar arsenalından (ehtiyatlarından) səmərəli istifadə edilməsinin mümkünlüyü;
- inzibati fəaliyyətin həyata keçirildiyi daxili və xarici şəraitlər;
- inzibati fəaliyyətin subyektinin iradəsindən asılı olmayan digər obyektiv amillər və s.

İnzibati fəaliyyətin həyata keçirilməsi prosesində metodlardan istifadə edərkən göstərilənlərdən əlavə, inzibati fəaliyyətin subyekti obyektiv amilləri və şərtləri, eləcə də inzibati fəaliyyətin daxili və xarici fəaliyyətlərinin mövcud olmasını və inzibati fəaliyyətin növlərini (istiqamətlərini) də nəzərə almalıdır.

Metodların seçilməsi və istifadə edilməsi zamanı işin (məsələnin) daha da səmərəli həll edilməsi üçün onlardan daha səmərəlisinin və ya metodların daha əlverişli kombinasiyasının müəyyən edilməsi, seçilmiş metodların inzibati fəaliyyət prosesində bacarıqla tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edir.

3.2. Polisin inzibati fəaliyyətində inandırma metodunun anlayışı, növləri və onların məzmunu

İnandırma – metod kimi polisin inzibati fəaliyyətinin subyektinin bu fəaliyyətin obyektinə, onun iradəsinə, insanların davranışına, əxlaqi, psixoloji, maddi təsirin göstərilməsidir. İnandırma metodu – təsir vasitəsi kimi insanlarda bu fəaliyyətin məqsəd və vəzifələrinə uyğun gələn şüur yaradır, onu möhkəmləndirir və inkişaf etdirir, onları inzibati fəaliyyəti həyata keçirən subyektin tələblərinin şüurlu surətdə yerinə yetirilməsinə vadar edir. İnandırma idarəetmənin əsas metodu kimi insanlarda düzgün olmayan baxışları, davranışları dəyişdirir və onlarda cəmiyyətin hüquqi və mənəvi tələblərinə uyğun olan yeni baxışları və davranışları formalaşdıran təsir vasitəsidir.

İnzibati fəaliyyətin vəzifə və funksiyalarının səmərəli yerinə yetirilməsi, hüquq normalarının və normativ-hüquqi aktların göstərişlərinin yerinə yetirilməsi məqsədilə birinci növbədə, inandırma tədbirləri olan tərbiyəetmədən, ən yaxşı nümunələrin göstərilməsindən, ictimai borcun nümunəvi yerinə yetirilməsinə və vicdanlı əməyə görə mükafatlandırmadan və s. istifadə olunur. Deməli, inandırma vasitələri davranış qaydalarının lazımi səviyyədə təmin edilməsinin həvəsləndirici amillərindən ibarətdir. Belə ki, inandırma vasitələri bir qayda olaraq, vətəndaşlar tərəfindən hüquq normalarını və inzibati fəaliyyətin subyektlərinin qanuni sərəncamlarının şüurlu və könüllü yerinə yetirilməsi yönəldilmişdir.

İnandırma metodu məzmununa görə tərbiyəetmə vasitəsidir. Polisin inzibati fəaliyyəti sahəsində inandırmanın geniş istifadə edilməsi vətəndaşların və inzibati-hüquqi münasibətlərin digər iştirakçılarının bu fəaliyyətin həyata keçirilməsi prosesində həll edilən məsələlərə daha yüksək səviyyədə cavab verən davranışlarını həvəsləndirir.

İnandırma cinayətlərin və digər hüquqpozmaların xəbərdar edilməsi vasitəsidir. O, vətəndaşların düzgün davranışa daxili tələbat və möhkəm vərdiş ruhunda tərbiyə edilməsinə, hüquqpozmalarının xəbərdar edilməsinə xidmət edir.

Polisin inzibati fəaliyyətində tətbiq edilən inandırmanın əsas növləri (tədbirləri) aşağıdakılardır:

- əxlaqi və hüquqi tərbiyə etmə;
- polisin inzibati fəaliyyətində aşkarlıq;
- təşkilati-kütləvi iş;
- mükafatlandırma (mənəvi və madi həvəsləndirmə);
- ictimai təsir göstərmə tədbirləri və s.

Əxlaqi və hüquqi tərbiyə etmə - inzibati fəaliyyət sahəsində yaranan münasibətləri tənzimləyən normalara riayət edilməsi, bu sahədə yaranan ictimai münasibətlər iştirakçılarının yüksək şüurluğu və intizamlığı, onlar tərəfindən öz hüquq və vəzifələrini başa düşmələri nəticəsində könüllü və vicdanla həyata keçirilməsi kimi başa düşülür.

Göstərilən bu keyfiyyətlərin yaranması üçün müxtəlif vasitələrdən istifadə edilir:

- dövlət siyasətinin izah edilməsi;
- əhali arasında tərbiyəvi işin və hüquqpozmalar törətməyə meyli olan şəxslərlə fərdi işin aparılması;
- təbliğat-təşviqat işi;
- cəmiyyətəzidd xətaların tənqid edilməsi və onları törədən şəxslərə ictimai qınaq vəziyyətinin yaradılması;
- polis əməkdaşının siyasi və hüquqi mədəniyyətinin, onun vətəndaşlarla, insan qrupları ilə, insan kollektivləri ilə dialoq aparma bacarığının yüksəldilməsi və s.

İnandırma tədbirləri sistemində polisin inzibati fəaliyyəti subyektləri tərəfindən əhali arasında aparılan hüquqi təbliğat əsas yer tutur. O, vətəndaşlar tərəfindən hüquq normalarının tələblərinin düzgün başa düşülməsinə, onların könüllü yerinə yetirilməsinə və onlara əməl edilməsinə, hüquqpozmaların xəbərdar edilməsinə kömək edir.

Əhalinin hüquqi cəhətdən tərbiyə edilməsinin ən geniş yayılmış formalarına aşağıdakılar aiddir:

- polis əməkdaşlarının televiziya və radio vasitələri ilə əhali qarşısında və əmək kollektivlərində hüquq mövzularında mühazirə və məruzələrlə çıxış etmələri;
- hüquqi problemlərin və qanunvericiliyin tətbiqi praktikasının müzakirə edilməsi ilə "dəyirmi masaların", "sual-cavabların" təşkili;
- hüquqi ədəbiyyatın nəşr edilməsi və s.

İnandırma tədbirləri sistemində aşkarlıq da az əhəmiyyət kəsb etmir. İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi təcrübəsi göstərir ki, polisin əhali ilə səmimi dialoqu və kütləvi informasiya vasitələri ilə səmərəli qarşılıqlı əlaqənin mövcud olması vəziyyətində müxtəlif növ şayiələrin və fitnəkar xəbərləriin yayılmasına yer qalmır. Demokratiyanın inkişaf etdiyi və hüquqi dövlət quruculuğu vəziyyətində konkret yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarda, eləcə də əmək kollektivlərində ölkədəki hüquq qaydasının vəziyyəti

barədə əhalinin və ictimaiyyətin maksimum məlumatlandırılması tələbi polisin inzibati fəaliyyəti üçün ən mühüm əhəmiyyət kəsb edən amillərdən biridir.

Polisin inzibati fəaliyyətində aşkarlıq "Polis haqqında" Qanunun 6-cı maddəsində aşağıdakı formada öz əksini belə tapmışdır:

"I. Polis öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada dövlət orqanlarına və əhaliyə məlumat verir;

II. Polisə dövlət, peşə və kommersiya sirrini, prokurorun, müstəntiqin və ya məhkəmənin müvafiq icazəsi olmadan ibtidai və məhkəmə istintaq materiallarını, habelə insanların şəxsi həyatına, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə toxunan, onların ləyaqətini alçalda bilən məlumatları açıqlamaq qadağandır.

III. Fiziki və hüquqi şəxslər haqqında polisin yaydığı məlumatların həqiqətə uyğun olmadığı müəyyənləşdirildikdə polis bir ay müddətində həmin məlumatları onların yayıldığı formada təkzib etməlidir".

Polisin inzibati fəaliyyətində aşkarlığın ən geniş yayılmış forma və üsullarına aşağıdakıları aid etmək olar:

- əməliyyat şəraiti, işdə olan müsbət nəticələr və hüquq qaydasının möhkəmləndirilməsində yaranan problemlər haqqında məlumatlar vermək üçün polis orqanları rəhbərlərinin və digər polis əməkdaşlarının kütləvi informasiya vasitələrinin yaradıcılıq ittifaqlarının və təşkilatlarının nümayəndələri ilə müntəzəm görüşlərin (brifinqlərin, press-konferensiyaların) keçirilməsi;
- cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə məsələləri üzrə polis orqanları rəhbərlərinin və digər əməkdaşlarının mərkəzi və yerli mətbuatda, televiziya və radio ilə çıxışları;
- cinayətkarlığın və digər hüquqpozmaların vəziyyəti və onlarla mübarizənin nəticələri barədə statistik və digər materialların açıq mətbuatda çap etdirilməsi;
- şəhərdə (rayonda) ictimai qayda və ictimai təhlükəsizliyin vəziyyəti, konkret müəssisələrdə hüquqpozmaların profilaktikası, eləcə də polisin ünvanına daxil olan tənqidi mülahizələrin realizə edilməsi üzrə görülmüş tədbirlər barədə polisin inzibati xidmət əməkdaşlarının əhali, əmək kollektivləri ictimaiyyət qarşısında hesabatları;
- polisin əhali ilə "birbaşa" telefon əlaqələri işinin təşkil edilməsi;
- polis əməkdaşlarının idarə, müəssisə və təşkilatlarda əmək kollektivləri qarşısında hesabatları və s.

Aşkarlıq vətəndaşları ictimai qaydanın qorunması ictimai təhlükəsizliyin təmin edilməsi işində, hüquq qaydalarının möhkəmləndirilməsində iştirak etmək ruhunda tərbiyə edir. Digər tərəfdən aşkarlıq polis əməkdaşlarına həvalə edilmiş işin yerinə yetirilməsinə görə onlarda məsuliyyət hissini artırır, polisin fəaliyyətində qanunçuluğun pozulması hallarının minimuma endirilməsinə və yekun nəticədə polisin hörmətinin, imicinin möhkəmlənməsinə kömək edir.

Təşkilati-kütləvi iş. İnandırmanın təşkilati-kütləvi iş növünün mahiyyəti aşağıdakılardan ibarətdir:

- hüquq qaydasının mühafizəsində iştirak edən ictimai birliklərə polisin inzibati fəaliyyət subyektləri tərəfindən təşkilati, metodik və digər köməkliklərin göstərilməsindən;

- onların fəaliyyətinin əlaqələndirilməsindən;

- polis orqanlarının və ayrı-ayrı əməkdaşların iş təcrübələrinin ümumiləşdirilməsindən, təcrübə mübadiləsi məşğələlərinin keçirilməsindən;

- məlumat icmallarının, tövsiyələrin, təlimlərin və s. hazırlanması və yayılmasından və s.

Mükafatlandırma (mənəvi və maddi həvəsləndirmə). Mükafatlandırma – işində əldə etdikləri müvəffəqiyyətlərinə və ya ictimai borclarını yerinə yetirdiklərinə görə şəxsin xidmətlərinin açıq tanınmasından, təltif edilməsindən, ictimai tərifin edilməsindən və s. ibarətdir. Mükafatlandırma tədbirləri mənəvi, maddi və mənəvi-maddi xarakterli ola bilər.

Mükafatlandırma sisteminə aşağıdakı kimi mükafatlandırma tədbirləri daxildir:

- "Azərbaycanın Milli Qəhrəmanı" adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir.

Bu ad Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir ("Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 15 iyul 1992-ci il).

- Azərbaycan Respublikasının orden və medalları ilə mükafatlandırma; Azərbaycanın orden və medalları "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 10 noyabr 1992-ci il tarixli Qanunu ilə müəyyən edilmişdir. Bu Qanuna 6 dekabr 1993-cü ildə əlavə və dəyişikliklər edilmişdir. Bu Qanunla təsis edilmiş orden və medallardan daxili işlər orqanlarının əməkdaşları "Azərbaycan Bayrağı" ordeni, "Şöhrət" ordeni, "Vətən uğrunda" medalı, "İgidliyə görə" medalı və s. mükafatlandırılırlar. Azərbaycan Respublikasının hər bir orden və medallarının verilməsi və onların təsviri müvafiq qanunlarla tənzimlənir;

- Azərbaycan Respublikası DİN-in fəxri fərman və döş nişanları ilə mükafatlandırma.

Mükafatlandırma sisteminə daxili işlər orqanları əməkdaşlarının fəxri adlarla mükafartlandırılmaları da daxildir. Bu adlar Azərbaycan Rspublikası Prezidentinin 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikasının Fəxri adları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərmanı ilə təsis edilmişdir.

Polisin inzibati xidmət əməkdaşları işlərindəki müvəffəqiyyətlərə görə "Polis haqqında" Qanuna və "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnaməyə müvafiq olaraq mükafatlandırıla bilərlər. İctmai qaydanın qorunmasında və cinayətkarlığa qarşı mübarizədə fərqlənmiş vətəndaşlar daxili işlər orqanları, onların iş yerləri, eləcə də ictimai birliklər tərəfindən mükafatlandırıla bilərlər.

İctimai təsir tədbirləri. İnandırma – əmək kollektivləri, ictimai birliklər, ictimai yerliözünüidarə orqanları və s. orqanlar tərəfindən hüquqpozmuş şəxslərə əxlaqi, tərbiyəvi, ictimai təsir tədbirlərin, məzəmmətin, töhmətləndirmənin və s. tətbiq edilməsi ilə sıx əlaqədardır.

İctimai təsir tədbiri – hüquqpozma törətmiş şəxsə qarşı əmək kollektivinin, ictimai birliyin yoldaşlıq təsiri göstərməsidir. Bu tədbirlər öz təbiətlərinə görə

yoldaşlıq xarakteri daşıyır. İctimai təsir tədbirləri vasitələri ilə cəmiyyətə zidd xətaların mətbuatda, radioda, televiziyada, əmək kollektivlərinin iclaslarında və s. inandırmaq, izah etmək, tənqid etmək və məzəmmət etmək yolu ilə təsir edilir. Zəruri hallarda hüquqpozma törətmiş şəxslərə ictimai məcburetmə tədbirləri tətbiq edilə bilər. Belə tədbirlərə ictimai birliklər tərəfindən öz üzvlərinə cəmiyyətəzidd və digər əxlaqi xətalara görə tətbiq edilən tənbehlər aiddir.

Bununla yanaşı ictimai qaydanın qorunmasında fəal iştirak edən vətəndaşlar ictimai birliklər tərəfindən fəxri fərmanlarla, fəxri döş nişanları və digər mükafatlandırma tədbirləri ilə mükafatlandırıla bilərlər.

3.3. Polisin inzibati fəaliyyətində məcburetmə metodunun anlayışı, növləri və onların məzmunu

Polisin inzibati fəaliyyətində əsas metod olan inandırma heç də həmişə hüquqazidd hərəkətlər törətmiş şəxslərin davranışına kifayət dərəcədə effektiv təsir göstərə bilmir. Bununla əlaqədar olaraq, dövlət şəxsiyyətin toxunulmazlığını, onun hüquqlarının və azadlıqlarının, vətəndaşların, idarə, müəssisə və təşkilatların qanuni mənafelərini müdafiə etməklə polis əməkdaşlarına inandırma tədbirləri və ictimai təsir tədbirləri təsiri altına düşməyən və ya düşmək istəməyən şəxslərə məcburetmə tədbirlərini tətbiq etmək səlahiyyəti vermişdir. Məcburetmə inandırma təsir vasitələri tükəndikdə inandırmanın əsasında tətbiq edilir.

Polisin inzibati fəaliyyəti sahəsində tətbiq edilən məcburetmə inzibati-hüquqi xarakter daşıyır və qanunun tələblərinə müvafiq olaraq müəyyən edilmiş qaydada tətbiq edilir.

Polisin inzibati fəaliyyətinin metodu kimi məcburetmə şəxsiyyətin davranışına və şüuruna psixi, maddi və ya fiziki təsirin göstərilməsindən ibarətdir. İctimai qaydanı təmin edərkən, eləcə də inzibati fəaliyyət sahəsində digər funksiyaları həyata keçirərkən polis əməkdaşlarına icrasına zəmanət verilən, zəruri hallarda isə həm də məcburetmə tədbirlərinin tətbiq edilməsi ilə təmin edilən və hüquq qaydalarının təmin edilməsi ilə əlaqədar olan tələbləri şəxslərə vermək səlahiyyətləri verilmişdir.

Psixi məcburetmə – şəxsiyyətin iradəsinə, hisslərinə, dərrakəsinə, yəni şəxsiyyətin psixikasına təsir edir, onun iradəsini formalaşdırır, gücün və ya şəxsiyyət üçün xoşagəlməz nəticələr verə bilən hər hansı digər təsir tədbirlərinin tətbiq edilməsi qorxusu altında onu tələb olunan ictimai davranış qaydalarına əməl etməyə sövq etdirir. Psixi məcburetməyə ictimai qaydanı pozan şəxsə səlahiyyətli polis əməkdaşı tərəfindən cəmiyyətəzidd hərəkətə yol verilməməsi barədə xəbərdarlıq edilməsini, polis əməkdaşı tərəfindən hüquqpozma törədən şəxsə və ya vəzifəli şəxsə törədilən hüquqpozmasının dayandırılması barədə edilən tələbləri və s. misal olaraq göstərmək olar.

Maddi məcburetmə – şəxs tərəfindən törədilmiş xətanın xarakterindən asılı olaraq, onun barəsində ona məxsus olan pul vasitələrinin və əmlakın vasitəsi ilə edilir.

Maddi məcburetmə əmlaka sahib olmağın və ondan istifadə edilməsinin müəyyən dərəcədə məhdudlaşdırılması, əmlak sahibinin sərəncamında olan bəzi maddi nemətlərdən onun məhrum edilməsi, hüquqpozmuş şəxsdən pul məbləğinin – cərimənin tutulması və s. ilə ifadə olunur.

Fiziki məcburetmə - şəxsiyyətin hüquqazidd davranışlarının qarşısının alınması və onun hərəkətlərinin məhdudlaşdırılması yolu ilə ona birbaşa təsirin göstərilməsindən ibarətdir. Bu tədbirlər vasitəsilə şəxsiyyətin iradəsinə zidd olaraq, səlahiyyətli polis əməkdaşı tərəfindən inzibati fəaliyyətin məqsədlərinə nail olunmasına yönəldilmiş hərəkətlər edir. Məsələn: inzibati xəta törətmiş şəxsi polis əməkdaşı inzibati qaydada tutmaqla qanunla müəyyən edilmiş müddətə onu sərbəst hərəkət etməkdən məhrum edir. Hüquqpozmuş şəxsə fiziki güc, əl qandalları və digər xüsusi vasitələr tətbiq etməklə polis əməkdaşı hüquqpozmuş şəxslərin hüquqazidd hərəkətlərinin qarşısını alır və s. Belə fiziki məcburetmə tədbirlərini tətbiq etməklə polis əməkdaşı hüquqpozuntusu törədən şəxsin qanunazidd hərəkətlərinin qarşısını alır və s.

İnzibati məcburetmə tədbirləri həm hüquqpozmuş şəxslərə, həm də hüquqpozma törətməmiş şəxslərə qarşı tətbiq edilə bilər (məsələn: təbii fəlakətlər, epidemiyalar, epizootiyalar zamanı onların ictimai təhlükəli nəticələrinin aradan qaldırılması, hüquqpozmaların xəbərdar edilməsi və s.).

Polisin inzibati fəaliyyətində tətbiq edilən məcburetmə şəxsiyyətə əzab vermək və ya onun ləyaqətini alçaltmaq məqsədi daşımır. Bununla yanaşı o, qorxuducu və cəzalandırıcı xüsusiyyətlərindən də məhrum edilməmişdir.

Məcburetmənin tətbiq edilməsinin əsasları

Məcburetmə – polisin inzibati fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin hüquqazidd qəsdlərdən müdafiəsinin inzibati-hüquqi vasitəsidir, eləcə də ictimai təhlükəsizlik və vətəndaşların şəxsi təhlükəsizliyi üçün təlükə yaradan halların baş verməsinin xəbərdar edilməsi və qarşısının alınması vasitəsidir. "Polis haqqında" Qanunun 18-ci maddəsinə əsasən ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edliməsi sahəsində polis əməkdaşının hüquqları müəyyən edilmişdir. Məsələn: inzibati xəta törətmiş şəxs barəsində protokol tərtib etmək, şəxsi baxış keçirmək, əşyalarını yoxlamaq, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə onu saxlamaq və s.

İctimai qaydaları, ictimai təhlükəsizliyi mühafizə edərkən və digər inzibati funksiyaları həyata keçirərkən polis əməkdaşları qanuna müvafiq olaraq müəyyən edilmiş hüquq normalarını, davranış qaydalarını qəsdən pozan şəxsləri onlara əməl etməyə məcbur edə bilər; müəyyən edilmiş hüquq qaydalarına məcburi tabe edə bilər, hüquqpozmalara yol verilməməsi və qarşısının alınması üçün müstəqil və dərhal tədbirlər görə bilər, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilmələrini təmin edən şərait yarada bilərlər. Əks halda, yubanma vətəndaşların şəxsi və əmlak təlükəsizliyi üçün təhlükə yarada bilər; ictimai qaydalara, dövlətin, idarə, müəssisə və təşkilatların maraqlarına xələl gətirə bilər. Beləliklə, deyə bilərik ki, baş verən ən xırda xuliqanlığın və ya ictimai qaydanı pozan digər hərəkətlərin dərhal

qarşısını almaq üçün polis əməkadaşları yalnız inandırma tədbirləri deyil, həm də məcburetməni də tətbiq etməyə borcludurlar. Yolda avtomobilin tormoz sistemində nasazlıq aşkar etdikdə və ya müəyyən edilmiş tələblərə cavab verməyən binada odlu silahın saxlandığını aşkar etdikdə polis əməkdaşları maraqlı tərəflərin razılığını və ya hər hansı orqanın icazəsini almadan dərhal pozuntuların aradan qaldırılması üçün tədbirlər görürlər.

Hüquq qaydalarının və ictimai təhlükəsizliyin təmin edilməsinin üsullarından, onların tətbiq edilməsi məqsədlərindən, bu zaman yaranan hüquqi münasibətlərin səciyyəvi xüsusiyyətlərindən və tətbiq edilən inzibati məcburetmə tədbirlərinin xüsusiyyətlərindən asılı olaraq inzibati məcburetmə tədbirlərini aşağıdakı dörd qrupa bölmək olar:

- inzibati-xəbərdarlıq tədbirləri;
- inzibati qarşısınıalma tədbirləri;
- inzibati prosessual-təminetmə tədbirləri;
- inzibati tənbehlər.

İnzibati məcburetmə tədbirlərinin belə tövsif edilməsi müəyyən dərəcədə şərtidir. Belə ki, bəzi hüquq ədəbiyyatında inzibati məcburetmə tədbirləri üç qrupa bölünür: inzibati xəbərdarlıq tədbirləri, inzibati qarşısınıalma tədbirləri və inzibati tənbehlər.

Bizim baxdığımız indiki halda bəzi qarşısınıalma tədbirləri inzibati prosessual-təminetmə və əksinə, bəzi inzibati prosessual-təminetmə tədbirlər inzibati qarşısınıalma tədbirlərinə aid edilə bilərlər və s. Ona görə də inzibati məcburetmə tədbirlərinin belə şərti bölünməsini nəzərə alaraq, onların mahiyyətini daha yaxşı başa düşmək üçün biz dörd variantın üzərində dayanacağıq.

NƏTİCƏ

Mühazirəmizin mövzusunun planına daxil edilmiş sualların açıqlanmasını yekunlaşdıraraq qeyd etmək istərdim ki, bu günkü mövzumuzun vasitəsi ilə əldə edəcəyiniz hüquqi biliklər sizin gələcək fəaliyyətinizdə həm nəzəri, həm də təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Bu günkü mövzumuzun vasitəsi ilə əldə edəcəyiniz nəzəri biliklərin mahiyyəti polisin qarşısında duran vəzifələrin böyük həcminin polisin inzibati fəaliyyəti vasitəsi ilə həyata keçirilməsindən ibarətdir. Digər tərəfdən isə polisin inzibati fəaliyyəti ilə demək olar ki, polis əməkdaşlarının əksəriyyəti məşğul olurlar. Ona görə də hər bir polis əməkdaşı tərəfindən polisin inzibati fəaliyyətinin məzmunu, onun əlamətləri, funksiyaları, formaları və növləri barədə nəzəri biliklərə yiyələnməsi daha vacib şərtlərdən biridir.

Polisin inzibati fəaliyyəti polisin gündəlik fəaliyyətində daha geniş istifadə olunduğu üçün hər bir polis əməkdaşı bu fəaliyyət barəsində nəzəri biliklərə yiyələnməklə öz xidməti vəzifələrini qanunvericiliyin tələblərinə və peşəkarcasına müvafiq olaraq yerinə yetirmiş olar. Digər tərəfdən isə hər bir polis əməkdaşı tələb olunan nəzəri biliklərə yiyələnməklə real vəziyyətdən asılı olaraq öz xidməti vəzifələrini yerinə yetirərkən inzibati fəaliyyətin bu və ya digər formasından peşəkarcasına istifadə etmiş olar.

Mühazirəmizin gedişatından və mövzumuzun suallarının açıqlanmasından daxili işlər orqanlarının (polisin) qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsində inzibati fəaliyyətin rolunun nə qədər böyük olduğunu gördünüz. Digər tərəfdən isə siz, gələcəkdə hansı xidməti sahədə xidmət göstərəcəyinizdən asılı olmayaraq, funksional xidməti vəzifələrinizi yerinə yetirərkən bu və ya digər dərəcədə inzibati fəaliyyətlə məşğul olacaqsınız.

"Polis haqqında" Qanunun 3-cü maddəsinin 2-ci bəndinə əsasən polisin əsas vəzifələrinin yerinə yetirilməsində də inzibati fəaliyyətin rolu böyükdür. Digər tərəfdən isə "Polis haqqında" Qanunun 14 və 16-cı maddələrinə əsasən "ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi" və "yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sahələrində polis əməkdaşının vəzifələri müəyyən edilmişdir. Daxili işlər orqanlarının (polisin) inzibati fəaliyyətinin mahiyyəti məhz, bu vəzifələrin bilavasitə inzibati fəaliyyət vasitəsi ilə yerinə yetirilməsindən ibarətdir.

Mühazirəmizin mövzusunun suallarının açıqlanması ilə əldə etdiyiniz nəzəri bilikləri təcrübədə düzgün tətbiq etməklə siz, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsindən irəli gələn dövlətin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması sahəsində üzərinizə düşən vəzifələri və qanunçuluğun tələblərini yerinə yetirmiş olarsınız.

"Polis haqqında" Qanunun 3-cü maddəsinə əsasən polisin təyinatı və əsas vəzifələri müəyyən edilmişdir. Qanunun bu müddəalarının vaxtında və səmərəli yerinə yetirilməsini təmin etmək məqsədilə polis öz gündəlik fəaliyyətində dövlət idarəetməsinin əsas metodları olan inandırma və məcburetmə metodlarından daha geniş istifadə edir.

Polisin gündəlik fəaliyyətində geniş istifadə olunan məcburetmə metodu insan və vətəndaşların, onların ayrı-ayrı qruplarının qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılması ilə əlaqədar olduğu üçün onların qanunvericiliyin tələblərinə müvafiq olaraq tətbiq edilməsi daim dövlətin və cəmiyyətin diqqət mərkəzindədir.

Mühazirəmizin bu günkü mövzusunun da mahiyyəti ondan ibarətdir ki, Siz gələcəyin hüquqşünasları və polis orqanlarının peşəkar əməkdaşları kimi öz günədlik fəaliyyətlərinizdə məcburetmə metodunun tətbiqi ilə əlaqədar hüquqi və nəzəri biliklərə yiyələnməklə və onları qanunvericiliyin tələblərinə müvafiq olaraq tətbiq etməklə qanunçuluğa riayət etmiş olarsınız.

Polis əməkdaşları xidməti vəzifə və funksiyalarını yerinə yetirərkən məcburetmə metodunu həmişə real vəziyyətə uyğun olaraq tətbiq etməyi bacarmalıdırlır, yəni onun tətbiq edilməsi yalnız inandırma metodu öz bəhrəsini vermədikdə həyata keçirilməlidir. Digər tərəfdən isə məcburetmə metodu tətbiq edilərkən yalnız müvafiq normativ-hüquqi akt rəhbər tutulmalıdır, yəni məcburetmə metodu qüvvədə olan qanunvericiliyin tələblərinə müvafiq olaraq tətbiq edilməlidir.

Ən nəhayət, hər bir polis əməkdaşı məcburetmə metodunu qanunvericiliyin tələblərinə müvafiq olaraq tətbiq etməklə öz gündəlik fəaliyyətini "Polis haqqında" Qanunun 4-cü maddəsində əksini tapmış polisin fəaliyyətinin insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq və humanistlik prinsiplərinə riayət etməklə həyata keçirmiş olar.